**ABŞ-ın nüfuzlu "Jamestown Foundation" nəşri Azərbaycanda aparılan islahatlardan yazıb**




Bax 2

**Babək Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilib**



Bax 3

**Mixail Qusman: İslahatlar kursunun yenilənmiş parlamentə ehtiyacı var**



Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 016 (5981) 29 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan MDB ölkələrindən ən çox Rusiyaya məhsul göndərib

Ötən il Azərbaycan MDB ölkələri arasında ən çox Rusiyaya məhsul ixrac edib. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın MDB ölkələri arasında ən çox məhsul ixrac etdiyi ölkələr...



Bax 10

## İndiyədək "ASAN Viza" vasitəsilə 1 milyon 877 min 835 viza verilib




Bax 6

İndiyədək "ASAN Viza" vasitəsilə 1 milyon 877 min 835 viza verilib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara...

# İlham Əliyev: "Ölkədə bizim daxili risklərimiz yoxdur"

Bax 2




## Daxili İşlər Nazirliyi sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib

Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə son günlər sosial şəbəkələrdə, xüsusən "İnstagram" platformasında müəyyən ödəniş qarşılığında vətəndaşlara guya internet xidmətləri göstərən səhifələrin sayının artdığı ifadə edilib. Qeyd olunub ki, belə səhifələrin adminləri izləyicilərinə sosial şəbəkə hesablarının parollarını qırmaq və ya başqa bir şəxsin mesajlarını izləmək kimi vədlər verir, bəzən də izləyici sayı çox olan səhifələri satışa çıxarırlar. Hətta virtual məkanda fala baxmaq adı ilə...

Bax 4



## Kristian Eriksen rəsmən "İnter"də

Bax 16




"Tottenhem"in futbolçusu Kristian Eriksenin "İnter"ə keçidi rəsmiləşib. Klubun saytında yer alan xəbərdə deyilir ki, 27 yaşlı yarımmüdafiəçi ilə 2024-cü ilin iyununa qədər müqavilə imzalanıb. Qeyd edək ki, İtaliya mətbuatı bu transfer üçün A seriyası təmsilçisinin 20 milyon...

**"Müsavatçı namizədlərin seçki prosesinə ləkə vurmaq cəhdləri müəyyən dairələrin sifarişidir"**



Bax 6

**"Bəziləriniz hər saniyə həyəcan içində deport olunacağınızı gözləyirsiniz"**




Bax 14

**Rövnəq Abdullayev növbəti dəfə AFFA-nın prezidenti seçilib**



Bax 16

# İlham Əliyev: “Ölkədə bizim daxili risklərimiz yoxdur”

***ABŞ ilə İran arasında gərginliyin artması Azərbaycanda da böyük narahatlıq doğurur. Regional təhlükəsizliyə ən ciddi təhdidlərdən biri 30 ilə yaxındır davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. BMT Təhlükəsizlik Şurasının bununla bağlı dörd qətnaməsinə baxmayaraq, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini hələ də işğal altında saxlayır. Bu, regionda qeyri-sabitlik mənbəyi olaraq qalır.***




AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən “Strateji baxış: Avrasiya” mövzusunda panel iclasında regional təhlükəsizliyə ciddi təhdid yaradan bu və digər qaynar nöqtələrlə bağlı fikirlərini bölüşüb.

Hazırda ən vacib məsələnin regional sabitlik olduğunu bildirən dövlətimizin başçısı deyib: “Ölkədə bizim daxili risklərimiz yoxdur, istər siyasi risklər olsun, istər iqtisadi. Ölkə sabitdir, inkişaf davamlıdır. Bizim həyata keçirilməkdə olan və xalqımız üçün böyük imkanlar yaradan çox geniş islahatlar gündəliyimiz var. Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan super qüvvələr, super güclər daşıyacaq”.

Prezident İlham Əliyev vurğulayıb ki, bu gərginliklər Azərbaycanın sərhədləri yaxınlığında cərəyan edir. “Biz Əfqanıstanda gərginlikləri görürük, biz orada həll edilməmiş vəziyyəti görürük, - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan özü Ermənistan tərəfindən işğala məruz qalıb və bu, daimi təhdid mənbəyidir. Azərbaycan ərazilərinin 20 faizi beynəlxalq hüququn normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq Ermənistanın işğalı altındadır.

> “Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı”

Son vaxtlar regionda Azərbaycanın yaxın qonşusu olan İran ilə ABŞ arasında artan gərginliyə də toxunan Prezident İlham Əliyev deyib: “Biz ABŞ-İran münasibətlərində gərginliyin kəskinləşməsinin şahidi oluruq. Regionda artıq baş qaldırmaqda olan bir çox qaynar nöqtələr potensial təhdidlərdir. Ona görə də biz sərhədlərimizin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıyıq. Çünki hətta Azərbaycandan kənarda olan iqtisadi çətinliklər bizim iqtisadi və sosial vəziyyətimizə təsir edə bilər. Buna görə də düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur”.

## ABŞ-ın nüfuzlu “Jamestown Foundation” nəşri Azərbaycanda aparılan islahatlardan yazıb

***ABŞ-ın nüfuzlu “Jamestown Foundation” nəşrində Azərbaycanda 2019-cu il ərzində həyata keçirilən islahatlardan bəhs edən “İlə baxış: Azərbaycan daxili islahatlar və çoxtərəfli xarici siyasət həyata keçirir” sərlövhəli məqalə dərc olunub. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, müəllifi Mərkəzin şöbə müdiri Fuad Çıraqov olan məqalədə 2019-cu ilin Azərbaycan üçün çox dinamik olduğu, yanvar-dekabr ayları ərzində müxtəlif islahatların həyata keçirildiyi və idarəçiliyin yeni nəslə ötürüldüyü diqqətə çatdırılır.***

Müəllif Prezident İlham Əliyevin 2019-cu il ərzində demək olar hər ay özünün yeni islahatları və təyinatları ilə yerli və beynəlxalq müşahidəçiləri təəccübləndirdiyini yazır. Qeyd edir ki, qonşu regionlarda siyasi dinamizm siyasi hakimiyyətlərdən narazı kütlələrin etirazları ilə müşayiət olunsa da, bu, Azərbaycanda dövlət başçısının islahatları ilə özünü göstərir.


jamestown.org/program/a-year-in-review-azerbaijan-pursues-internal-reforms-and-external-multilateralism/?fbclid=IwAR3Pm2glsgwlQHe_8hcFMnbet1MPBj2O406iJzzJEj6hDxlZASajeXNZcCk

The JAMESTOWN FOUNDATION Global Research & Analysis
ABOUT US · PROGRAMS · REGIONS · PRESS/MULTIMEDIA · STORE · ARCHIVES · Search ..

EURASIA DAILY MONITOR

**A Year in Review: Azerbaijan Pursues Internal Reforms and External Multilateralism**

Publication: Eurasia Daily Monitor Volume: 17 Issue: 9

By: Fuad Chiragov

January 27, 2020 03:48 PM Age: 14 hours

(Source: Commons.Wikimedia.org)

The politics of Azerbaijan were unusually dynamic in 2019, compared to recent years, shifting dramatically between January and December. President Ilham Aliyev notably continued the transformative reforms he began several years earlier. And almost every month, the Azerbaijani leader caught domestic and international observers by surprise by announcing a variety of reforms and new appointments. His actions throughout 2019 have nearly completed the transition of government management to the younger generation. Along with reforms, the economy of Azerbaijan improved according to several international organizations' metrics (Azernews.az, September 28, 2019; Report.az, October 17, 2019).

In neighboring regions, political dynamism has usually been triggered from the bottom–up by protests of discontented masses—in most cases leading to turmoil. But in the case of Azerbaijan, the president has been

PUBLICATIONS: CHINA BRIEF · EURASIA DAILY MONITOR · TERRORISM MONITOR · MILITANT LEADERSHIP MONITOR · COMMENTARIES · HOT ISSUES

SPECIAL PROJECTS: Russia in Decline · RUSSIA IN THE MIDDLE EAST · WAR BY OTHER MEANS RUSSIA'S USE OF PRIVATE MILITARY CONTRACTORS AT HOME AND ABROAD

Məqalədə davam edən islahatlar fonunda ölkənin qanunvericilik orqanının aparılan islahatlara uyğunlaşdırılması üçün Milli Məclisin yeni seçkilərə getməsi və bununla bağlı dövlət başçısına müraciət etməsi də vurğulanır.

Həmçinin diqqətə çatdırılır ki, ölkə daxilində aparılan islahatlara və müsbət dəyişikliklərə baxmayaraq, Azərbaycan-Ermənistan münaqişəsinin həlli istiqamətində heç bir irəliləyiş olmayıb, Ermənistan təcavüzkar və status-kvonu saxlamaq siyasətini davam etdirir. Bununla yanaşı, ötən il xarici siyasət sahəsində qazanılan uğurlar kimi, TANAP layihəsinin açılışının olduğu və Bakıda 120 ölkədən nümayəndə heyətinin iştirak ilə Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün keçirildiyi diqqətə çatdırılır.



# Babək Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilib



***Yanvarın 28-də Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının açılışı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.***



Naxçıvan Muxtar Respublikası baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək deyib ki, aqrar sahədə sistemli şəkildə həyata keçirilən kompleks islahatlar və göstərilən dövlət dəstəyi nəticəsində muxtar respublikada əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi təmin edilib. Ət-süd emalı müəssisələrinin yaradılması muxtar respublikanın bütün rayonlarında əhalinin əsas məşğulluq sahəsi olan heyvandarlığın inkişafına səbəb olub. 2019-cu ildə muxtar respublikada heyvandarlıq sahəsinə 9 milyon 982 min manatdan artıq kredit verilib. Hazırda muxtar respublikada 115 min 620 baş iribuynuzlu, 704 min 57 baş xırdabuynuzlu heyvan, 1 milyon 307 min baş quş və 99 min 798 arı ailəsi saxlanılır. Yeni baytarlıq idarələri və məntəqələrinin tikilməsi, laboratoriyaların qurulması, süni mayalanmanın tətbiqi heyvandarlığın, arıçılığın və quşçuluğun inkişafına səbəb olub. Muxtar respublikada biotəhlükəsizliyin qorunması da diqqətdə saxlanılıb, Dövlət Baytarlıq Xidməti dərman və bioloji preparatlarla təchiz olunub, profilaktika məqsədilə peyvəndləmə, dezinfeksiya işləri aparılıb, epizotiya əleyhinə ardıcıl tədbirlər görülüb.

Babək Rayon Baytarlıq İdarəsinin rəisi Cəlal Həsənov kollektiv adından minnətdarlıq edərək deyib: Muxtar respublikada hər bir sahədə olduğu kimi, baytarlıq xidmətində də əsaslı inkişafa nail olunub. Babək Rayon Baytarlıq İdarəsinin inzibati binasının istifadəyə verilməsi bu tədbirlərin davamıdır. Binada işçilər üçün münasib iş şəraiti yaradılıb, həmçinin analizləri yüksək səviyyədə aparmaq üçün müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya yaradılıb. Hazırda rayon ərazisində epizootik vəziyyət tam sağlamdır. Yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəyik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən tədbirlər ərzaq təhlükəsizliyini təmin etmişdir. Kənd təsərrüfatının inkişafında əsas sahələrdən biri də baytarlıq təbabəti və baytarlıq xidmətinin təşkildir. Çünki bu sahədə lazımi şəraitin yaradılması, müasir avadanlıqların alınması, eləcə də kadrlarla təminat heyvandarlığın, quşçuluğun və arıçılığın inkişafına şərait yaradır.

Ali Məclisin Sədri deyib: Muxtar respublikada baytarlığın inkişafı üçün lazımi tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar fəaliyyət göstərir. Həmçinin baytarlıq idarələri və məntəqələri üçün lazımi iş şəraiti yaradılır, süni mayalanmanın tətbiqi ilə bağlı tədbirlər görülür. Epizootik tədbirlərin görülməsi üçün dərmanlarla təminat vaxtında həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada bu sahədə sabitlik vardır. Hər bir ölkənin müstəqil yaşaması üçün ərzaq təhlükəsizliyinin təmin olunması vacib məsələdir. Baytarlıq xidmətinin düzgün təşkili də həm əhalinin təsərrüfatının, əmlakının qorunmasına, həm də ərzaq təhlükəsizliyinin təmin olunmasına, insanların sağlamlığına, onların keyfiyyətli heyvandarlıq, quşçuluq və arıçılıq məhsulları ilə təminatına imkan verir. Hazırda ölkəmizdə bu məsələyə xüsusi diqqət yetirilir.

Qeyd olunub ki, kənd təsərrüfatının inkişafı bu gün qarşıda duran əsas vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı rayonudur. Əhalinin 70 faizi kəndlərdə yaşayır və bu sahə ilə məşğul olur. Bu da baytarlıq xidmətinin təşkilini zəruri edir. Çünki mal-qaranın normal artımı və sağlamlığı təmin olunmasa, bu sahəyə maraq da azalar, ərzaq təhlükəsizliyinin təmin olunmasında çətinliklər yaranar. Ona görə də baytarlıq xidmətinin təşkili qarşıda duran əsas vəzifələrdəndir. Bu vəzifələrin icrası üçün lazımi şərait yaradılıb. Babək rayonu muxtar respublikanın böyük yaşayış məntəqələrindəndir. Kənd təsərrüfatının əkinçilik, heyvandarlıq, arıçılıq, quşçuluq sahələri rayonda inkişaf etdirilir. Hazırda rayonda 15 mindən yuxarı iribuynuzlu, 143 minə yaxın xırdabuynuzlu heyvan, 330 minə yaxın quş, 15 minə yaxın arı ailəsi saxlanılır. Rayonda süni mayalanma işi də yaxşı təşkil olunub. Belə ki, təsərrüfatlarda saxlanan 15 mindən artıq iribuynuzlu heyvanın 9 faizi bir il ərzində süni mayalanma yolu ilə alınmış cins buzovlardır. Bu da göstərir ki, bir neçə il ərzində rayonda mal-qaranın cins tərkibi tamamilə dəyişiləcəkdir.

"Baytarlıq xidmətinin təşkili fədakarlıq və zəhmət tələb edir. Muxtar respublikada epizootik tədbirlərin vaxtında həyata keçirilməsinin nəticəsidir ki, heyvanlar arasında infeksion xəstəliklər yoxdur", - deyən Ali Məclisin Sədri kollektivin timsalında muxtar respublikanın bütün baytarlıq təbabəti xidmətinin əməkdaşlarına təşəkkürünü bildirib, bundan sonra da Babək rayonunda heyvandarlığın, arıçılığın və quşçuluğun inkişafına xüsusi diqqət göstərilməsinin vacibliyini qeyd edib, kollektivə işlərində uğurlar arzulayıb.

Sonra binaya baxış olub.

Məlumat verilib ki, Babək Rayon Baytarlıq İdarəsi baytarlıq laboratoriyası, baytar sanitar ekspertiza laboratoriyası və 29 sahə baytar məntəqəsini əhatə edir. Bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Zirzəmidə parazitologiya, bakteriologiya və serologiya şöbələri, dərman və boyaq maddələrinin saxlanc otağı, yeməkxana, anbar və qazanxana vardır. Birinci mərtəbədə iş otaqları, ikinci mərtəbədə 2 baytar həkimi otağı, sahə baytar məntəqəsi və texniklər üçün otaqlar, süni mayalanma avadanlıqlarının saxlanc otağı, arxiv və 26 yerlik iclas zalı yerləşir.

Baytarlıq İdarəsi mikroskop, termostat, distilyator, sentrafuqa, sterilizator, analiz aparatları, maye azot tankı, süni mayalanma çantası və digər lazımi avadanlıqlarla təmin olunub.

Həyətdə abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, suvarma və işıqlandırma sistemləri, eləcə də yandırma quyusu qurulub.

Ali Məclisin Sədri baytarlıq sahəsində Dövlət Proqramının hazırlanması və xidmətin təşkilində maarifləndirməyə diqqətin artırılması barədə aidiyyəti üzrə tapşırıqlar verib.





# “SƏS Media Qrupu” Beynəlxalq əlaqələrini genişləndirir

***Türkiyənin Azərbaycandakı Səfirliyinin mətbuat katibi Hüseyin Altınalan SƏS Media Qrupunu ziyarət edib. SƏS Qəzeti ənənəsinə sadiq qalaraq beynəlxalq əlaqələrini genişləndirir. İndiyə qədər SƏS Media Qrupu dəfələrlə Azərbaycanda fəaliyyət göstərən müxtəlif xarici səfirliklərin nümayəndələri ilə ikitərəfli görüşlər keçirib. Həmin görüşlər zamanı əldə olunan razılaşmalar SƏS Media Qrupun fəaliyyəti, diplomatik korpusların fəaliyyətlərinin işıqlandırması üçün tələb olunan meyardır. Bu meyar hal hazırda da tam sürətilə davam etməkdədir.***

Türkiyə Respublikasının Azərbaycandakı Səfirliyinin mətbuat katibi Hüseyin Altınalan görüş çərçivəsində Baş redaktor Bəhruz Quliyevlə söhbətində bildirib ki, Azərbaycan və Türkiyə arasında qardaşlıq bağları daha da möhkəmlənib: “Biz bunu hər iki ölkənin Prezidentlərinin mütəmadi görüşləri zamanı da yaxından müşahidə edirik. Azərbaycanın xarici siyasətində əldə edilən uğurların da təməlində məhz bu kimi amillər dayanır”.

Mətbuat katibi həmçinin SƏS Media Qrupuna aid olan resurslar tərəfindən Türkiyənin Azərbaycandakı səfirliyinin fəaliyyətinin işıqlandırılmasında Baş redaktor Bəhruz Quliyevin təşəbbüslərini xüsusi qiymətləndirib və ona təşəkkür edib. Hüseyin Altınalan vurğulayıb ki, SƏS Qəzetinin bu cür ənənəyə sadiq qalması sevindirici haldır: “Bildiyimiz kimi Türkiyə mediası dünyanın ən nüfuzlu KİV-lərindən biri hesab olunur. SƏS Media Qrupunun da bu KİV-lərlə ikitərəfli əlaqələr qurmaqla dost ölkədə baş verən hadisələri yaxından izləmək imkanı tapar”. Əlbəttə ki, bu bizim



üçün də sevindiricidir. Çünki müstəqil və demokratik Azərbaycan mətbuatına bir çox ənənələr gətirən SƏS Media Qrupu bu yeniliklərlə də digər media qurumlarına da örnək kimi göstərilə bilər.

# Azərbaycan Dünya İqtisadi Forumunun nüfuzlu üzvüdür

***Dünya İqtisadi Forumunun illik toplantısında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı dünya ictimaiyyətinin diqqət mərkəzində olub. Dünyaca məşhur olan Davos Forumunun rəsmi saytında Prezident İlham Əliyevin “Azərbaycanın vahid və dayanıqlı dünyada rolu” sərlövhəli məqaləsinin yerləşdirilməsi heç də təsadüfi deyil və bu, ictimai marağın və diqqətin təzahürüdür.***

Dövlət başçımızın iştirakına, eləcə də, ölkəmizə olan maraq özünü çox gözlətmədi və “Carlyle Group” şirkətinin həmtəsisçisi Devid Rubinşteynin Davosda Prezident İlham Əliyevlə görüşü ilə bu maraq öz təsdiqini tapdı. Azərbaycan Dövlət Neft Fondu ilə əməkdaşlığı yuksək qiymətləndirən “Carlyle Group” şirkətinin həmtəsisçisi Devid Rubinşteynin əməkdaşlığın gələcək istiqamətləri barədə Azərbaycan Prezidenti ilə söhbəti də təsdiq edir ki, bu maraq durmadan artır.

Azərbaycan Prezidenti ilə görüşməkdə maraqlı olan yalnız bir şirkət və onun rəhbəri deyildi və belə görüşlərin forum çərçivəsində çox sayda olması, heç də təsadüfi sayıla bilməz. Çünki şirkət rəhbərlərinin, iş adamlarının ölkə başçısı ilə görüşə maraqlı olmasına əsaslı səbəblər var və bu səbəbləri təkzib etmək mümkün deyil. Məsələn, yanvarın 20-də Davosda “VTB Bank”ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinin Prezident İlham Əliyev ilə görüşü təsdiq edir ki, bank prezidenti Azərbaycanda olan imkan və şəraitdən, ümumiyyətlə, fəaliyyətindən də çox razıdır. Hətta bunu ölkə başçısı ilə görüşündə Andrey Kostin etiraf da edib ki, “VTB Bank” Azərbaycanda uzun müddətdir uğurlu fəaliyyət göstərir. Bank prezidentinin Azərbaycan Dövlət Neft Fondu ilə “VTB Bank” arasında səmərəli əməkdaşlığı davam etdirəcəyi barədə fikirləri də təsdiq edir ki,

“VTB Bank” timsalında ölkəmizdə maliyyə sektorunun inkişafı da yüksək qiymətləndirilir. Məhz bu qiymətləndirmə, öz növbəsində, əminliyi artırır. Təsadüfi deyil ki, Davos çərçivəsində reallaşan görüş zamanı Prezident İlham Əliyev “VTB Bank”ın Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunun artırılmasını təklif etdiyi zaman Andrey Kostin təklifə müsbət yanaşdığını bildirib və dövlətimizin başçısını əmin edib ki, “VTB Bank” bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcək.

Xüsusilə, qeyd etmək lazımdır ki, Davos İqtisadi Forumu yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, bu, Dünya İqtisadi Forumu çərçvəsində




dövlət və hökumət başçılarının, iri biznes nümayəndələrinin, ayrı-ayrı sahələrdən ekspertlərin qeyri-rəsmi formada keçirilən görüşlər problemlərin həlli istiqamətində əvəzsizdir. Belə görüşlər sayəsində hər hansı problemin, yaxud problemlərin optimal həllinə nail olmaq, daha münasib variant tapmaq imkanları qazanılır. Belə imkanların əldə edildiyi bir şəraitdə iş adamlarının, şirkət rəhbərlərinin qurduğu əlaqələr iqtisadi əməkdaşlıq üçün çox dəyərlidir. Məhz bu baxımdan, cəsarətlə deyə bilərik ki, Davos İqtisadi Forumu artıq uzun müddətdit ki, özünü təsdiqləmiş nüfuzlu iqtisadi platformadır. Ölkəmizə olan maraq, bizimlə iqtisadi əlaqələrin genişləndirilməsi üçün göstərilən səylər, təsdiq edir ki, Azərbaycan bu forumun ən aktiv təmsilçilərindəndir. Eyni zamanda, onu da qeyd etmək yerinə düşərdi ki, Prezident İlham Əliyevin hər il bu forumda fəal iştirakı, eləcə də, ölkənin iqtisadi potensialı barədə orada çalışan iş adamlarına, mediaya əsaslı və ciddi məlumatlar verməsi ölkəmizin Davos Forumunda aktivliyini daha da artırır.

Xüsusilə, vurğulamaq lazımdır ki, istər Azərbaycanla əməkdaşlığa olan marağı, istərsə də ölkəmizin Dünya İqtisadi Forumunda hər il nümayiş etdirdiyi aktivliyi şərtləndirən ölkəmizdə aparılan ciddi iqtisadi islahatlardır. Bu islahatlarla yanaşı, qarşıya qoyulan strateji yol xəritəsinin də, bu mənada, mühüm əhəmiyyəti var və bu da, xüsusilə, vurğulanmalıdır ki, dünyada böyük neft-qaz ölkəsi kimi tanınan Azərbaycanın qeyri-neft sektoruna da bir çox xarici şirkətlər investisiya yatırmaq marağındadır. Məhz ölkəmizin strateji yol xəritəsi investorlara yatırım etməkdə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan da, ölkəmizi Davos Forumunun ən nüfuzlu üzvlərindən biri hesab etməkdə hər kəs haqlıdır.

Cəsarətlə deyə bilərik ki, Davos Dünya İqtisadi Forumunun arzu olunan və çox nüfuzlu üzvlərindən biri hesab olunan Azərbaycanın nüfuzu durmadan artmaqdadır və dünya ictimaiyyəti son dəfə də bunun əyani şahidi oldu. Qlobal və regional səviyyədə dünyanın başlıca siyasi, sosial və iqtisadi problemlərinin müzakirəsinin aparılması üçün strateji platforma hesab olunan, çoxsaylı mövzular üzrə sessiyalardan ibarət olan forumda dövlət rəhbərlərinin, tanınmış siyasi xadimlərin, böyük və nüfuzlu şirkətlərin rəhbərlərinin, müxtəlif qeyri-hökumət təşkilatlarının, media orqanları nümayəndələrinin ölkəmizə marağının daha da artmasında, bu, özünü açıq şəkildə büruzə verdi.

***İnam HACIYEV***



## Daxili İşlər Nazirliyi sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib

Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə son günlər sosial şəbəkələrdə, xüsusən “İnstagram” platformasında müəyyən ödəniş qarşılığında vətəndaşlara guya internet xidmətləri göstərən səhifələrin sayının artdığı ifadə edilib. Qeyd olunub ki, belə səhifələrin adminləri izləyicilərinə sosial şəbəkə hesablarının parollarını qırmaq və ya başqa bir şəxsin mesajlarını izləmək kimi vədlər verir, bəzən də izləyici sayı çox olan səhifələri satışa çıxarırlar. Hətta virtual məkanda fala baxmaq adı ilə də vətəndaşlarımızı aldadan şəxslər mövcuddur.

“Daxili İşlər Nazirliyinin sosial şəbəkə hesablarına bu cür dələduzluq faktları ilə üzləşmiş şəxslər tərəfindən çoxsaylı müraciətlər daxil olur. Odur ki, şəbəkə istifadəçilərinə belə məsələlərə diqqətli yanaşmağı, bu tipli elanları paylaşan şəxslərə heç bir ödəniş etməməyi və şəxsi məlumatlarını kənar şəxslərlə paylaşmamağı tövsiyə edirik”, - deyə müraciətdə bildirilib.

## Əbülfəs Qarayev və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi ilə görüş keçirilib

Yanvarın 28-də Mədəniyyət naziri Əbülfəs Qarayev və BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti arasında görüş keçirilib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı təlimlər, yaradıcı sənayelər və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib. Həmçinin BMT-nin İnkişaf Proqramının innovasiyalara dəstək üçün yeni təşəbbüsü olan “Accelerator Lab” layihəsi barəsində söhbət açılıb.

Bildirilib ki, layihənin əsas məqsədi təlimlər vasitəsilə müxtəlif formalarda olan yeni həll yollarını sınaqdan keçirmək və icra müddətini sürətləndirməkdir. Əbülfəs Qarayev ölkəmizdə yaradıcı mədəniyyət sənayesinin inkişafı sahəsində həyata keçirilən layihələr barədə Alessandro Frakassettiyə məlumat verib. Azərbaycanda yeni inkişaf mərhələsində olan kreativ mədəniyyət sənayesi sahəsində böyük potensialın olduğunu vurğulayan nazir bu istiqamətdə görülən işlərdə birgə əməkdaşlığın önəmindən bəhs edib. Sonra 2020-ci ildə həyata keçirilməsi nəzərdə tutulan layihələr barədə fikir mübadiləsi aparılıb.

## Mixail Qusman: İslahatlar kursunun yenilənmiş parlamentə ehtiyacı var



Azərbaycanda parlamentin buraxılması və yeni seçkilərin keçirilməsi ilə bağlı qərar təqdirəlayiqdir. Bunu Secki-2020.az saytına açıqlamasında Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bildirib. “Prezident İlham Əliyevin islahatlar kursunun yenilənmiş parlamentə ehtiyacı var”, - deyən M.Qusman çoxlu sayda gənc namizədin seçkilərə qatılmasını müsbət qiymətləndirib.

## “Exit-poll” keçirmək istəyən təşkilatların akkreditasiyası üçün müddət bu gün başa çatır

Milli Məclisə seçkilərlə əlaqədar “exit-poll” keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyasına ayrılan müddət bu gün başa çatır. Secki-2020.az saytına istinadla xəbər verir ki, “Azərbaycan Respublikasında seçkilərdə “exit-poll” keçirən təşkilatların akkreditasiyası Qaydaları”nın 2.3-cü bəndinə əsasən, “exit-poll” keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərar səsvermə gününə ən azı 10 gün qalanadək qəbul edilməlidir. Milli Məclisə fevralın 9-da keçiriləcək seçkilərlə əlaqədar bu müddət yanvarın 30-dək olan dövrü əhatə edir.

# Bəşər tarixini formalaşdıran ən ölümcül epidemiyalar



**Planetimizin hər küncünü digər canlılarla bölüşürük. Bunlara miqyasda mikroskopik olan bakteriyalar, mikroblar və viruslar daxildir. İçlərində bizə kömək edə biləcəklər və sonumuzu gətirə biləcək olanlar da var. Hal hazırda belə bədəninizdə, əllərinizdə, ağzınızda bədxassəli bakteriya və mikroblar var. Məsələn, ölümcül stafilokok bakteriyasının daşınması ehtimalı 25 faizdir. Bu bakteriya sizə zərər verə bilməz, ancaq onu başqasından götürsəniz həyatınızı itirə bilərsiniz. SİA-nın araşdırmalarına görə, immunitet sistemimiz və bugünkü tibbin imkanları çox vaxt bizi qorumaq üçün kifayətdir, lakin bu mikroorqanizmlər dünyada bizdən daha uzun yaşayır və nəsillərini qorumaqda bizdən daha davamlı və sabitdir.**

Əlbəttə ki, insanın yaşam mübarizəsini də danmaq olmaz. Böyük itkilər verilsə də, bəşəriyyət indiyə qədər baş verən ən dəhşətli hadisələrdən canını qurtara bilib və öz növünü davam etdirib. Budur, bəşər tarixini formalaşdıran ən ölümcül epidemiyalar:

**1. Antoninus (Galen) epidemiyası**

Eramızın 165-180-ci illəri arasında Roma İmperiyasında meydana gələn və şərq ekspedisiyalarından qayıdan əsgərlər tərəfindən gətirilən bir epidemiya xəstəliyi olan Antoninusun vəbası gündə 2000 insanın ölümünə səbəb olan ilk məşhur vəba epidemiyasından biridir. Tədqiqatçılar xəstəliyin bir çiçək və ya qızılca olduğundan şübhələnsələr də, əsl səbəb qeyri-müəyyən olaraq qalır. Epidemiya Roma imperatorları Lucius Verus və Marcus Aurelius Antoninusun ölümünə səbəb oldu, imperiya ümumi əhalisinin 30 faizini itirdi.

**2. Yustinian vəbası**

İmperator Yustinian 541-ci ildə Konstantinopolda taxta oturarkən Avropada başlayan bir epidemiya əvvəlcə Misirə, sonra Fələstinə, Suriyaya, sonra Anadoluya çatıb. Yustinian Konstantinopola bütün çıxışları bağlasa da, epidemiya şəhərə qoşunların gətirdiyi materiallar arasındakı siçovullar vasitəsi ilə daxil oldu. Siçanların tükləri arasında gizlənən Xenopsylla adlı uçucu bir böcək, Pasteurella pestie adlı ölümcül vəba bakteriyasını mədəsində daşıyırdı. Bu böcəklər ətrafdakı digər siçanların tükləri arasında sürətlə uçur və çoxalırdılar. İnsan bədəninin istənilən nöqtəsində yerləşdirilən və vəba mikrobuna köçürülən böcəklər yoluxmuş insanların bir neçə gün ərzində ölməsinə səbəb olub. Bir həftə ərzində şəhərdə vəba sürətlə yayılıb və ölümlər başlayıb. Sarayın ətrafı hərbi hissələr tərəfindən karantinə alınıb. Gündə bir neçə yüz olan ölənlərin sayı tezliklə minlərə çatıb. Dəfn yerləri dolduqdan sonra ölülər dənizə atılmağa başlanıb. Saray əsgərlər tərəfindən karantinə alınıb. Xəstəlik öz intervalı ilə irəliləyib və zaman keçdikcə özözünə yox olub. Lakin Konstantinopol əhalisinin 40 faizi itirib. Bu, Bizansın işçi qüvvəsini və əsgər sayını itirməsinə, zəifləməsinə və hücumlara açıq olmağına səbəb oldu, bu da Avropanın tarixini kökündən dəyişdirən inkişaflara səbəb olub.

**3. Qara vəba**

1346-1353 arasında meydana gələn Qara vəba epidemiyasının 75 və 200 milyon arasında insanın öldüyü düşünülür. Dəqiq sayları bilmək mümkün olmasa da, xüsusilə Avropa əhalisinin bu illərdə 30 ilə 60 faiz azaldığı düşünülür.

Kütləvi qırğından sonra cəmiyyətdəki tanrı və kilsənin sorğulanmasına səbəb olan Qara vəba epidemiyasının, həyatın bir çox bölgəsində dində islahatlara və intibahlara səbəb olduğu güman edilir.

**4. Amerika yerlilərinin suçiçəyi ilə qarşılaşması**

XV əsrdə avropalılar yeni dünyanı kəşf etdilər. Amerika qitəsindəki yerli insanlarla təmasa girən avropalı tədqiqatçılar, özləri ilə gətirdikləri virus və bakteriyaları yoluxdurdular. Su çiçəyi artıq Avropanın üçdə birini öldürmüşdü, amma immunitetləri avropalılar kimi inkişaf etməmiş və dərman çatışmazlığı olan amerikalılar üçün heç bir şans yox idi. Milyonlarla insan və yerli əhalinin 90 faizi o dövrdə ölüb. Bu, qitənin Amerikanı avropalılar tərəfindən müstəmləkə etməsini olduqca asanlaşdırıb. 19-cu əsrin əvvəllərinə qədər amerikalı hinduların biri Avropadan gələn xəstəliklər səbəbindən ölüb.

**5. Kokoliztli epidemiyası**

Meksika olaraq bilinən bölgədə "Yeni İspaniya" adlandırılan XVI əsrdə eyni dövrdə meydana gələn epidemiya, koksiztli yayılması kimi tanınır. Bu gün edilən müayinələr nəticəsində 1520-1576 arasında təxminən 15 milyon insanın ölümünə səbəb olan balıqlarda tapılan salmonella bakteriyasından qaynaqlandığı düşünülür. Bu, Maya sivilizasiyasının sonunun başlanğıcı olub və illərlə Venesueladan Kanadaya qədər yayılıb.

**6. Yeddi fərqli Xolera epidemiyası**

Sivilizasiya tariximizdə yeddi əsas xolera epidemiyası var idi, lakin bunlardan ən ölümcülü 1852-1860 arasında baş vermiş hadisəsi idi. Xoleranın əsas səbəbi içməli suyun çirklənməsi idi. Uzun müddət insan nəcisi, tullantılar, içmə və yemək üçün istifadə olunan kirli su, su mənbələrinə axıdılıb. Bunun böyük bir fəlakətə çevrildiyi yer o dövrdə Hindistan idi. 2011-ci ildə edilən bir araşdırmaya görə bu gün də dünyanın çirkli çaylarından biri olan Qanq çayında 100 mililitrdə 1,1 milyard nəcisli bakteriya var. Bu nisbət, yuyuna biləcəyiniz ən pis sudan 500 min dəfə daha çox çirklidir. Hindular bu çayda çimməyin müqəddəs olduğuna inanaraq gündəlik işlərində çay suyundan maksimum istifadə edirlər. Bu səbəbdən, xolera bu bölgədəki yaygın bir xəstəlik növüdür. Lakin, 19-cu əsrdə baş verən böyük bir epidemiya ilə, bütün Hindistan, Əfqanıstan və Rusiyaya xolera yayılıb. Rəsmi qeydlərə görə, hətta Rusiyada 1 milyon insanın ölümünə səbəb olan epidemiya, oradan Avropa və Afrikaya, nəhayət Amerikaya keçib. Xoleraya yoluxmuş hər 5 nəfərdən 1-də təhlükəli ishal baş verir. Bu insanların yarısı tez bir zamanda müalicə olunmazsa ölür. Vəbanın yeddi başında ölənlərin ümumi sayı bilinməsə də, bunu milyonlarla ifadə etmək mümkündür. Üçüncü epidemiyanın yayılması ilə həkimlər xoleranın səbəbini tapdılar və o vaxtdan bəri içməli suyun təmizlənməsi və qaynadılması lazım olduğu bilikləri dünyada geniş yayılıb.

**7. Üçüncü vəba epidemiyası**

Çində 1855-1859 illər arasında başlayan və dünyaya yayılan, təkcə Çin və Hindistanda 12 milyon insanın ölümünə səbəb olan bu epidemiya Yustinian vəbası və Avropanın qara vəba xəstəliyindən sonra bu epidemiya "Üçüncü vəba" adlandırılıb.Təsirləri bir əsr davam edən epidemiya Amerikanın qitəsinə uzaq şərqdən siçanlarla keçirilib. Əvvəlki bəlalardan fərqli olaraq tibb elmi bu xəstəliyin müayinə olunmasına və xəstəliyi müalicə edən dərmanların yaradılmasına imkan verib. Bu dərmanlara misal olaraq antibiotikləri birinci misal gətirmək olar.

**8. Birinci Dünya Müharibəsi zamanı tif xəstəliyi**

1914-1918-ci illər arasında Tif bakteriyasını daşıyan bitlərin yaratdığı epidemiya müharibə nəticəsində ortaya çıxan bir fenomen idi. Bu epidemiaydan Avropa və Asiyada 25 milyon insan xəstələnib və xüsusilə Sovet İttifaqı ölkələrində təxminən 3 milyon insan ölüb. Qərb ölkələri epidemiyaya nəyin səbəb olduğunu daha tez başa düşdülər və bitlərdən xilas olmaq üçün tədbirlər görüldü.




**9. 1918 İspan Qripi pandemiyası**

Birinci Dünya Müharibəsindən sonrakı illərdə 500 milyon insan tərəfindən yoluxmuş H1N1 qrip virusu dünyada yüksək atəş ilə 50-100 milyon sağlam insanın ölümünə səbəb olub. (Müasir dövrün Donuz Qripi epidemiyası) Bu virusu digərlərindən fərqləndirən şey, hücum etdiyi bədənin immunitet sistemi nə qədər güclü olsa, qızdırma bir o qədər yüksək olardı. İspan qripi bəşəriyyətin ən böyük fəlakətlərindən biri olaraq tarixə keçib.

**10. 1957 Asiya qripi pandemiyası**

Çində başlayan qrip-A virusunun, ördəklərdə mutasiya edən və insana keçən bir xəstəlik olduğu düşünülür. Asiya qripi adlanan xəstəlik təxminən 4 milyon insanın həyatına son qoyub. Eyni vaksinlə epidemiyanın qarşısı alınıb. Bir ildə 40 milyon insan peyvənd edilib. Asiya qripi kütləvi peyvəndin əhəmiyyətini və təsirini göstərən ən vacib nümunələrdən birinə çevrilib.

**11. HİV (QİÇS) virusu**

20-ci əsrin ortalarında meymunlardan insanlara keçdiyi aşkarlanan HİV virusu 1959-cu ildə Konqoda görülüb. Ancaq onun diaqnozu və adı yalnız 1980-ci illərdə verilib. Son 30 ildə 36 milyon insanın həyatına son verən virusun müalicəsi üçün hələ də bir həll yolu tapılmayıb. Xəstəlikdən qorunmaq üçün yalnız ehtiyat tədbirləri görmək və ömür boyu dərman müalicəsi tətbiq etmək lazımdır.

***Aysel Məmmədova***

# “Müsavatçı namizədlərin seçki prosesinə ləkə vurmaq cəhdləri müəyyən dairələrin sifarişidir”



***Qarşıdan gələn parlament seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) və digər müvafiq strukturlar tərəfindən ən şəffaf və demokratik mühit yaradılıb. Bunu Trend-ə “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Müsavat Partiyasının namizədlərinin müxtəlif bəhanələr gətirməklə seçki prosesinə ləkə salmaq cəhdlərinə münasibətini açıqlayarkən deyib.***

Onun sözlərinə görə, bu gün ölkədə seçkiöncəsi mühit əvvəlkilərdən daha da fərqlənir və yaradılan imkanların hər birində namizədlərin özlərinin təbliğat-təşviqat kampaniyasını aparmaları üçün geniş şərait yaradılır: “Müsavat partiyasının əsassız iddialarına gəlincə, onu deyə bilərəm ki, gah efir vaxtının verilməməsindən, gah dairə-seçki komissiyasında süni maneələrin yaradılmasından gileylənmələri onların zəifliklərini bəri başdan etiraf etmələri ilə əlaqədardır. Bu gün kifayət qədər müxalifət partyalarının namizədləri qeydiyyatdan keçərək çox rahat, demokratik tərzdə kampaniyalarını aparırlar. Bu zaman sual yaranır, nəyə görə müsavatçılar bu qədər xoflanırlar? Bu sualın cavabı olaraq məhz belə qənaətə gəlmək olar ki, Müsavat namizədləri seçiciləri qarşısında xal toplamağı, nüfuz qazanmağı bacarmırlar. Bu isə nə Mərkəzi Seçki Komissiyasının, nə də seçki ilə bağlı olan digər qurumların təqsiridir. Onsuz da ictimai rəy bu kimi müxalifətçilərin öz zəifliklərini başqalarında axtarmalarının kifayət qədər şahidi olur. Bəs, digər müxalifətçi namizədlər nə üçün eyni “ittihamlarla” çıxış etmirlər? Məlumdur ki, müsavatçı namizədlərin seçkilərə qatılaraq prosesə ləkə vurmaq cəhdləri müəyyən dairələrin sifarişidir. Necə ki, AXCP və “Milli Şura” öz təbirlərincə “boykot taktikası” adı altında həmin sifarişların digər istiqaməti üzrə qarayaxma kampaniyaları aparırlar. Amma gördüyümüz kimi, bu kampaniyalar öz uğursuz nəticəsini tapır. İstər namizədlərin çoxluğu, istərsə də onların hər birinin seçkiyə inamla getməsi bu kimi stereotipləri sözün əsl mənasında məhv edir”.

Ekspert onu da qeyd edib ki, Prezident İlham Əliyev parlament seçkiləri ilə bağlı istər ölkədə, istərsə də xaricdə etdiyi çıxışlarında tamamilə yeni bir parlamentin formalaşdırılacağı bəyanatını verdi: “Bu, həm də beynəlxalq aləmə təqdim edilən demokratiya nümunəsi, şəffaflıq etalonudur. Hesab edirəm ki, belə bəhanələrlə seçki prosesinə ləkə salmaq cəhdləri nəticəsiz qalacaq. Formalaşdırılacaq yeni parlament xalqın iradəsi ilə seçiləcək, ölkəmizə, millətimizə öz səmərəli bəhrələrini verəcək. Bu baxımdan, demokratiya və şəffaflıq prinsipi üzərində baş tutacaq seçkilər beynəlxalq aləmin seçki standartlarına öz möhürünü vuracaq”.

# Azərbaycan və Səudiyyə Ərəbistanı informasiya sahəsində əməkdaşlığa böyük önəm verir

***Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığı digər istiqamətlərdə olduğu kimi, informasiya sahəsində də əməkdaşlığın genişlənməsinə önəm verir. Bununla bağlı məsələlər AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri Həməd Xudeyrin görüşü zamanı müzakirə olunub.***



İki ölkə arasında əlaqələrin ulu öndər Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfərindən sonra yeni mərhələyə qədəm qoyduğunu diqqətə çatdıran Aslan Aslanov deyib: “Azərbaycan Prezidenti İlham Əliyev də dost ölkə olan Səudiyyə Ərəbistanı ilə əməkdaşlığın genişləndirilməsinə daim xüsusi diqqət yetirir. Hazırda iqtisadi, humanitar və turizm sahələrində irəliləyişlərə nail olmaq üçün birgə addımlar atılır”.

Görüşdə ölkəmizdə ərəbşünaslıq elminin inkişaf etməsinin məmnunluq doğurduğu qeyd olunub. Ərəb ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçılarından biri sayılan görkəmli şərqşünas alim Aida İmanquliyevanın xidmətləri minnətdarlıq hissi ilə xatırlanıb, onun intellektual irsinin müasir dövrümüzdə Azərbaycanla ərəb ölkələri arasında ədəbi-elmi körpü rolunu oynadığı vurğulanıb.

Qeyd olunub ki, AZƏRTAC Səudiyyə Xəbər Agentliyi (SPA) ilə sıx tərəfdaşlıq əlaqələri qurub. Agentliklərimiz beynəlxalq informasiya qurumlarında bir-birini daim dəstəkləyir. SPA agentliyi 2013-2016-cı illərdə Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik edib. 2016-2019-cu illərdə isə sədrliyi bu quruma rəhbər seçilən AZƏRTAC-a ötürüb. Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) üzvü olan hər iki agentlik ötən müddətdə tərəfdaşlıq əlaqələrini daha da genişləndirə bilib. Hazırda AZƏRTAC mənzil-qərargahı Ciddə şəhərində yerləşən İslam Ölkələri Təşkilatına üzv ölkələrin Xəbər Agentlikləri Birliyinin (UNA) Şura üzvüdür. Təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi, agentliklər arasında əlaqələrin möhkəmlənməsi məsələləri ötən ilin dekabrında Ciddə şəhərində Şura sədri, Səudiyyə Ərəbistanının İnformasiya naziri Turki bin Abdullah əş-Şəbana ilə Aslan Aslanovun görüşü zamanı müzakirə edilib.

İki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin genişləndiyini deyən səfir Həməd Xudeyr xüsusən turizm istiqamətində böyük irəliləyişlərə nail olunduğunu bildirib. “İqtisadi sahədə əlaqələrin daha da dərinləşdirilməsi üçün birgə işləyirik. Yaxın vaxtlarda energetika sahəsində böyük bir layihənin reallaşdırılması üçün saziş imzalanacaq. Xalqlarımızın bir-birini daha yaxından tanıması məqsədilə mədəni tədbirlər də təşkil edirik. Ölkələrimizin daha da yaxınlaşmasında medianın da böyük rolu var və bu imkandan səmərəli istifadə etməliyik”, - deyə diplomat vurğulayıb. Görüşdə səfirə 100 illiyini qeyd etməyə hazırlaşan AZƏRTAC haqqında məlumat verilib. Həmçinin müasir medianın inkişaf trendləri, səfirliyin tədbirlərinə informasiya dəstəyi verilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## İndiyədək “ASAN Viza” vasitəsilə 1 milyon 877 min 835 viza verilib



İndiyədək “ASAN Viza” vasitəsilə 1 milyon 877 min 835 viza verilib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev yanvarın 28-də keçirilən mətbuat konfransında məlumat verib. Agentliyin sədri bildirib ki, vizaların 619 min 249-u hava limanlarında verilib.

# Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər

***Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi andı qəbul etdikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı çatdırılıb.***







Mərasimdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilib.

Çıxış edənlər Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulayıblar.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altındakı torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə edilib. Eyni zamanda, Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin Dövlət Sərhəd Xidmətinə həvalə edilməsi şərəf və qürur olmaqla yanaşı, Ali Baş Komandanın Azərbaycan sərhədçisinə etimadının və etibarının ifadəsi kimi dəyərləndirilib. Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər. Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

# DSX: Xəzər dənizində batan balıqçı gəmisinin dörd nəfərlik heyəti xilas edilib

***Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsini davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 25-də saat 21:00 radələrində Xəzər dənizinin cənub istiqamətində Salyan reydində sahildən 3,5 mil (6 km) məsafədə olan “İdris” balıqçı gəmisindən gəmidə dəliyin əmələ gəlməsi və batma təhlükəsi ilə üzləşməsi və heyət üzvlərinin xilas edilməsinə ehtiyacın olması ilə bağlı Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaxınlıqdakı sahil nəzarəti bölməsinə məlumat daxil olub.***



Sahil nəzarəti bölməsi dərhal operativ tədbirlər həyata keçirərək xilasetmə üçün həmin istiqamətə kiçik həcmli üzmə vasitəsi göndərib. Gəmidə dəliyin böyük olması səbəbindən dolan suyun qarşısını almaq mümkün olmayıb və dörd balıqçı 22:15 radələrində xilas edilib. Saat 23:00 radələrində gəminin batması müşahidə olunub. Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslərin Neftçala rayon sakinləri gəmi kapitanı 1958-ci il təvəllüdlü Talıbov Ələsgər Məmmədəli oğlu, mexanik 1963-cü il təvəllüdlü Mikayılov Əlimədət Ağasadiq oğlu, matros 1962-ci il təvəllüdlü Əhmədov Ələddin Tapdıq oğlu, matros 1982-ci il təvəllüdlü Novruzov Əsgər Məhərrəm oğlu olmaları müəyyənləşdirilib.

# Paşinyanın nüfuzu - 0!



**2020-ci il də Ermənistanın baş naziri Nikol Paşinyanın həyatına elə ilk gündən uğursuz il kimi daxil olub. Bunun səbəbi də nə birdir, nə ikidir, nə üçdür... Ermənistanda ictimai fikirlər get-gedə baş nazir Nikol Paşinyanın əleyhinə çevrilməkdədir. Xalq keçmiş hakimiyyətə qarşı etiraz dalğası üzərində baş nazir postuna gələn N.Paşinyanı verdiyi vədləri yerinə yetirməməkdə, ölkəni lazımınca idarə etmək əvəzinə, şəxsi ambisiyalarını həyata keçirməkdə, ölkə həyatının heç bir sahəsində irəliləyişə nail olmamaqda, əksinə, xalqın güzəranının daha da pisləşməsində ittiham edir. Bütün bunlar, bir tərəfdən Paşinyan hökumətinə qarşı etimadsızlığın artmasına, digər tərəfdən ölkədə narazılığın pik həddə çatmasına səbəb olur. Son nəticə isə, Paşinyanın ölkə ictimaiyyəti qarşısında nüfuzunu itirməsi olur.**





Vəziyyət elə bir duruma gəlib çıxıb ki, artıq bunu səbatsız və səriştəsiz baş nazirin özü də etiraf etmək zorunda qalıb. Elə bu günlərdə "Yerkramas" informasiya agentliyində Paşinyan özü ölkədəki neqativ hallara görə xalqın ittihamlarından şikayətlənərək, səbəblərini də bir-bir açıqlayır. Bu yerdə Paşinyan bilməli idi ki, haqq nazilər, amma üzülməz. Əgər o, verdiyi vədlərini yerinə yetirə bilmədiyinə, xalqın ittihamlarına məruz qalsa və yaxud müəyyən etiraflarda bulunsa da, müxtəlif siyasi simuliyasiyalar vasitəsi ilə həyasızcasına ittihamlara da cavab verir: "Əvvəlcə ölkə müxalifəti məni və bizim hökuməti Qarabağı satmaqda ittiham edirdilər. Sonra belə bir tezis ortaya atıldı ki, guya mən Qarabağ əleyhinə fəaliyyətlə məşğulam, planlaşdırılmış müharibə nəticəsində, Qarabağı təhvil verəcəyəm. Bu tezis parlament seçkiləri zamanı dövriyyəyə buraxıldı. İndi isə başqa tezislə çıxış edirlər, guya hökumət və şəxsən baş nazir olaraq mən güzəştə getmirəm, bu isə, o deməkdir ki, danışıqlar dalana dirənib. Müxalifət xalq arasında mənə qarşı nifrət yaratmaqla məşğuldur. Hətta artıq xalqı müharibə ilə qorxudurlar, bu mövzu ətrafında təbliğat aparılır". Paşinyanın, bu açıqlaması ilə bir daha göstərir ki, o. laxlamış hakimiyyətini qorumaq üçün xalqın gözündə özünə haqq qazandırmaq istəyir. Üstəlik, bu zaman əsas vurğunu Qarabağ problemi üzərinə qoyur, ölkə daxilindəki sosial-iqtisadi problemlərdən, xalqın güzəranının pisləşməsindən, əsgər və şəhid analarının ölkəni bürümüş etirazlarından, ümumiyyətlə, danışmır. Bu isə Paşinyanın da, özündən əvvəlki hakimiyyət kimi, xalqın başını Qarabağ problemi ilə qatmaq istədiyini göstərir. O, hətta özünü xalqa "əsl qəhrəman" kimi təqdim etməklə, "görürsünüzmü, mən Qarabağı vermirəm..." kimi sərsəm fikirlər də söyləyir.

## Paşinyana vurulan ən ağır zərbə - Azərbaycanın qüdrətli reallığı

Dağlıq Qarabağ problemi ilə bağlı əsas zərbələri də Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevdən aldı. Belə ki, Azərbaycan lideri ona Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında ikinci ağır zərbəsini vurdu. Azərbaycan Prezidenti Ermənistanda faşizmin qəhrəmanlaşdırılması ilə bağlı cəsarətli fikirlərini irəli sürərək, bəyan etdi ki, Yerevanın mərkəzində faşist cəlladı və satqın Qaregin Njdeyə, təxminən, 6 metr hündürlüyündə heykəl qoyulub. Bu satqın vaxtilə alman faşistlərinə xidmət etmiş, hətta SSRİ vətəndaşlarına arxadan zərbə vurmuş, əli minlərlə günahsız insanın qanına batmış Qaregin Ter-Arutyunyandır. Hətta MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etiraz bildirib. Amma yeni hakimiyyət də bu faşist cəlladının heykəlini götürməyib. Prezident İlham Əliyevin bu fikirləri Ermənistanda faşist ideologiyasının dövlət siyasəti səviyyəsinə qaldırıldığına bariz nümunədir. Maraqlıdır ki, bu zərbə Ermənistanın küçədən gəlmiş baş nazirinə hələ "Valday" zərbəsindən özünə gəlməmiş dəydi.

Digər tərəfdən, ermənilər xüsusən, əsgər anaları gənc övladlarının Qarabağ cəbhəsində ölməsini istəmirlər. Bununla belə, Paşinyan da, Ermənistanın əvvəlki rəhbərləri kimi, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə mane olur. Üstəlik, o, "Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm bəyanat verməkdən də çəkinmir. Bax, budur küçə təfəkkürlü və siyasəti bilməmək gerçəkliyi.

Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Sammitində "Qarabağ Azərbaycandır və nida işarəsi" deməklə, Paşinyanın bütün xarici siyasətini alt-üst etdi. Bu reallıqları artıq erməni cəmiyyəti də etiraf edərək, Paşinyanı bu məğlubiyyətə görə ciddi tənqid atəşinə tutdu. Bütün bu reallıqları istər Rusiya, istərsə də beynəlxalq ictimaiyyət anladı ki, Azərbaycan Qarabağ məsələsində milli maraqlarından geri çəkilən, tarixi torpaqlarını heç kəsə güzəştə gedən deyil.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Türk Şurasının Bakı Sammitində də Azərbaycanın tarixi torpaqlarını itirmək kimi ağır və faciəli problemlə qarşılaşdığını qardaş ölkələrin diqqətinə çatdırdı, keçən əsrin əvvəllərindən başlayaraq, Azərbaycan ərazi itkisinə uğradığını qeyd etdi: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasının coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada, Türk Şurasının yaradılmasına dair qərarın, məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir".

Qoşulmama Hərəkatının Bakıda keçirilmiş XVIII Zirvə Görüşündə də Prezident İlham Əliyev müxtəlif ölkələrdən gəlmiş dövlət və hökumət başçılarının, XİN rəhbərlərinin və digər nümayəndələrin nəzərinə çatdırdı ki, Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin, təxminən, 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır.

Qoşulmama Hərəkatının Zirvə Görüşündə qəbul edilmiş yekun sənəddə Ermənistan işğalçı dövlət kimi tanınıb və Azərbaycanın ərazi bütövlüyünə ciddi dəstək ifadə olunub. Ancaq Paşinyan hökuməti həyasızcasına Qoşulmama Hərəkatına üzv ölkələri məsuliyyətsizlikdə və hörmətsiz davranışda suçlayıb. Amma bu, sərsəm faşismt xislətli və küçə təfəkkürlü Paşinyan anlamır ki, bu nəticəni dəyişmir və Ermənistan təcavüzkar dövlət olaraq qalır. Və bütün bunlar isə Paşinyanın imicinə güclü zərbədir və erməni cəmiyyətində ona qarşı etimadsızlığı daha da artırır.

## Stepan Partamyan: "Erməni xalqının 51 faizi qanacaqsız və savadsızdır"

Elə Ermənistanın məşhur diaspor nümayəndələrindən biri, Los-Ancelesdə yaşayan teleaparıcı və prodüser Stepan Partamyan bu günlərdə mətbuatda verdiyi açıqlamasında bildirib ki, ölkədə olan rəhbərlərin hamısı ikiüzlülük motivi üzərində işlərini qurublar: "Mən realist insanam və çalışıram ki, heç vaxt ikiüzlülük etməyim. Fakt odur ki, vətənimiz Ermənistan diaspora, diaspor isə Ermənistana gülür. Bir çoxları ikiüzlülük və yaltaqlıq edərək, yalandan belə ideyaları dəstəkləyir və tez-tez tərifləyirlər. Müstəqil olandan sonra Ermənistanı heç vaxt olmadığı qədər insan tərk edib. Son 7 il ərzində, mən bu məsələ ilə yaxından maraqlanıram. Dünya üzrə erməni izlərinin olduğu yerləri axtarıram, erməni izləri adlı heç bir şey yoxdur. Bu gün ermənilər kütləvi şəkildə Ermənistanı tərk edirlər. Xarici ölkələrdə yaşayan ermənilər identikliklərini itirirlər. Bu, nə üçün baş verir? Çünki erməniləri təhqir edir, alçaldır və onlardan zombi düzəldirlər. Ona görə deyirəm ki, erməni xalqının beyninin yerində mədəsi yerləşir. Biz ermənilər ancaq qışqırmağı sevən riyakarlar toplumuyuq. Erməni xalqının mədəni səviyyəsi aşağıdır. Erməni xalqının faciəsi budur. Bəziləri dilə gətirməkdən çəkinir. Amma mən, açıq deyirəm ki, erməni xalqının 51 faizi qanacaqsız və savadsızdır. Nə vaxta qədər bunları gizlədəcəyik? Artıq dözmək mümkün deyil. Son iki ildə 13 ölkəyə gedərək, erməni izləri axtarmışam. Həmin ölkələrdə xarici vətəndaşlar erməni izləri ilə bağlı olan yerləri mənə göstərirdilər. Ermənilər isə heç vaxt mədəniyyətlə maraqlanmırlar. Onların Ermənistana olan sevgisini dollar əvəzləyir. Faciə ondadır ki, erməni yer üzündə öz vicdanı, namusu, vətənpərvərliyi ilə mövcud ola bilmir. Öz dilini unudan erməni yer üzündən erməniliyin silinməsinə xidmət edir".

Stepan Partamyan müsahibəsində qeyd edib ki, insanlar ehtiyac üzündən Ermənistanı tərk edirlər və son iki il ərzində, Paşinyan hakimiyyətinin erməni xalqına etdiyini əvvəlki hakimiyyət etməyib.

Göründüyü kimi, bütün bunlar bir daha sübut edir ki, Paşinyanın bu addımları əvvəlki hakimiyyətin xalqa vurduğu zərbələrdən daha ağır zərbələr endirir. Çox yəqin ki, sadə erməni xalqı bu səhvləri Paşinyana bağışlamayacaq.

**A.SƏMƏDOVA**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## AĞALAR VƏLİYEV: “Seçki dairəsinə daxil olan yaşayış məntəqələrinin sosial-iqtisadi problemlərinin həllinə və seçicilərimin sosial sifarişlərinin yerinə yetirilməsinə öz köməkliyimi əsirgəməyəcəyəm”





***97 saylı Goranboy-Ağdam-Tərtər seçki Dairəsindən Yeni Azərbaycan Partiyasnın deputatlığa namizədi Ağalar Vəliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində yanvarın 27-də rayonun Nərimanlı, Balakürd, Boluslu, Goran, Məşədiqaralar və Eyvazlılar kəndlərində seçicilərlə görüşləri keçirilib.***





Nərimanlı və Balakürd kənd seçicilərinin iştirakı ilə keçirilən görüşü YAP rayon təşkilatının sədri Elçin İsmayılov açaraq, Yeni Azərbaycan Partiyasının seçkilərə “Daha güclü Azərbaycan naminə” getdiyini bildirib. Elçin İsmayılov qeyd edib ki, Azərbaycanın bugünkü inkişafının təməlində Ulu Öndər Heydər Əliyev siyasəti və bu siyasəti uğurla həyata keçirən Prezident İlham Əliyevin fəaliyyəti dayanır. O, qeyd edib ki, hər bir vətəndaş seçki hüququndan istifadə etməlidir: “Uğurların davamlı olması üçün seçiciləri Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıram. İnanıram ki, siz seçicilər gələcəyin partiyası olan YAP-ın namizədinə səs verəcəksiz”.

Təbliğat qrupunun üzvü Nofəl Köçərli Ağalar Vəliyevin fəaliyyəti barədə ətraflı məlumat verərək, bildirib ki, 2015 - 2019-cu il ərzində, Milli Məclisin üzvü kimi Ağalar Vəliyev seçicilərin etimadını layiqincə doğruldub. “Əminəm ki, 9 fevralda YAP-ın namizədi Ağalar Vəliyevə səs verməklə, yenidən Milli Məclisin üzvü kimi fəaliyyət göstərəcəkdir” deyə vurğulanıb.

Rayon seçki qərargahının üzvü Vilayət Yusifov, kənd ağsaqqalı Zakir Məmmədov, Ziraddin Məmmədov, Qarabağ əlili Telman Quluyev, Balakürd kənd ziyalısı Xalis Orucov çıxışlarında ikinci dəfə Ağalar Vəliyevə etimad göstərərək, 97 saylı Goranboy - Ağdam- Tərtər Seçki Dairəsindən Milli Məclisə namizəd göstərdikləri üçün Yeni Azərbaycan Partiyasına öz minnətdarlıqlarını bildiriblər və 9 fevralda YAP-ın namizədi Ağalar Vəliyevə səs verəcəklərini qeyd ediblər.

Görüşlərdə seçki qərargahının üzvləri Namik Məmmədov, Boluslu kənd Bələdiyyəsinin sədri Manya Allahverdiyeva, şəhid ailəsi Müşviq Məmmədov da çıxış edərək, YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.



Görüşdə Ağalar Vəliyevin seçicilər qarşısında çıxışında 5 ilə yaxın müddətdə millət vəkili kimi gördüyü işlər haqqında ətraflı məlumat verib və qeyd edib ki, ona yenidən etimad göstərilərsə, həmişə sadiq olduğu, çox danışmaq və əsassız vədlər vermək yox, real işlər görmək prinsiplərinə əsaslanacaq. “97 saylı Goranboy-Ağdam- Tərtər Seçki Dairəsinə daxil olan yaşayış məntəqələrinin sosial iqtisadi problemlərinin həllinə və seçicilərimin sosial sifarişlərini yerinə yetirilməsinə öz köməkliyimi əsirgəməyəcəyəm” deyə namizəd vurğulayıb.

**Rövşən RƏSULOV**



## Masallı seçicilərinin seçimi Məşhur Şahbaz oğlu Məmmədovdur



***Dünən 9 fevral parlament seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində 70 saylı Masallı şəhər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Məmmədov Məşhur Şahbaz oğlunun “Daha güclü Azərbaycan namine!” devizi altında YAP Masallı rayon təşkilatının qərargahında, rayonun Çaxırlı və Kəlbəhüseynli kəndlərində, eyni zamanda, rayon əhalisi və ayrı-ayrı ailələrlə görüşlər keçirib, onların problemləri ilə tanış olub.***

Görüşlərdə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev parlament seçkilərinin ölkəmizin siyasi həyatında mühüm hadisə olduğunu bildirib. O, görüş iştirakçılarına deputatlığa namizəd Məşhur Məmmədov haqqında geniş məlumat verib və Masallı seçicilərinin seçki prosesində hər zaman fəal iştirak etdiyini diqqətə çatdırıb: “Mən inanıram ki, hər zaman dövlətçiliyə bağlılıqları ilə seçilən Masallı seçiciləri bu dəfə də “Daha güclü Azərbaycan naminə” Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər”.

Görüşlərdə çıxış edən YAP-ın deputatlığa namizədi Məşhur Məmmədov parlament seçkilərinin əhəmiyyətindən bəhs edib və diqqətə çatdırıb ki, ölkəmiz, o cümlədən, Yeni Azərbaycan Partiyası zəngin seçki təcrübəsinə malikdir: “Ümumxalq partiyası olan, Cənubi Qafqazın ən böyük və mütəşəkkil siyasi təşkilatı kimi xarakterizə olunan Yeni Azərbaycan Partiyası “Daha güclü Azərbaycan naminə!” şüarı ilə seçkilərə gedir. Burada məqsəd indiyə kimi qazanılan uğurları daha da artırmaq, müstəqil dövlətimizi bütün sahələr üzrə daha da gücləndirməkdir. Partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin siyasəti nəticəsində, bu məqsədlərə doğru inamla gedirik”. Məşhur Məmmədov, həmçinin, Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin mahiyyətindən bəhs edərək, dövlət siyasətinin mərkəzində ölkə vətəndaşlarının rifahı və mənafeyinin dayandığını bildirib. Eyni zamanda, Məşhur Məmmədov millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb, seçicilərinin problemini öz problemi kimi həllinə çalışacağını bildirib.

Görüşlərdə çıxış edən Rəzzaq Paşayev, Şəkur Bağırov, Səadət Paşayev,

Mirqiyas Təhməzov, Həsrət Kərimov, Vaqif Əhmədov və başqaları YAP-ın namizədi Məşhur Məmmədova səs verəcəklərini deyiblər.

Sonda YAP-ın namizədi seçicilərə səmimiyyətə və isti münasibətə görə təşəkkür edib, fevralın 9-da fəal olmağa, seçkilərə qatılmağa və etimadlarını doğruldacaq namizədə səs verməyə çağırıb.

**RƏFİQƏ HÜSEYNOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*






## Mahir Abbaszadə seçiciləri ilə növbəti görüşünü Binəqədi rayonunda keçirib

***121 saylı Laçın Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının vahid namizədi Mahir Abbaszadə yanvarın 28-də seçiciləri ilə növbəti görüşünü Bakı şəhəri Binəqədi rayonunda keçirib.***

YAP Binəqədi rayon təşkilatının binasında keçirilən görüşdə 200-ə yaxın Laçın rayon sakini iştirak edib. Mahir Abbaszadə ona etimad göstərərək, növbəti dəfə namizədliyini irəli sürdüyünə görə Azərbaycan Prezidenti İlham Əliyev başda olmaqla, təmsil etdiyi partiyaya təşəkkürünü bildirib. O, qeyd edib ki, hakim partiya ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır, partiyanın fəaliyyəti və qərarları ölkənin ümumi inkişafı ilə həmahəngdir.

Mahir Abbaszadə vurğulayıb ki, dövlət başçısı tərəfindən milli maraqlara söykənən, ölkənin iqtisadi və sosial inkişafını hədəfə alan uğurlu daxili və xarici siyasət həyata keçirilir. Mərkəzində Azərbaycan vətəndaşının dayandığı bu siyasətin prioritet istiqamətlərindən biri də məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət problemlərinin həlli və maddi rifah halının yüksəldilməsinə xüsusi diqqət yetirirlər.

M.Abbaszadə onu da çıxışında qeyd edib ki, ötən deputatlıq fəaliyyəti dövründə dövlətə, xalqa və seçicilərinə ləyaqətlə xidmət etməyə, onların etimadını doğrultmağa çalışıb. Fevralın 9-da keçiriləcək parlament seçkilərində qalib gələcəyi təqdirdə, hər zaman seçicilərinin maraq və təkliflərinin həyata keçirilməsinə, onların müraciətlərinin müsbət həllinə səy göstərəcəyi vurğulanıb.

Daha sonra Mahir Abbaszadənin təbliğat-təşviqat kampaniyasının üzvləri və Laçın rayon sakinləri çıxış edib, onun bundan öncəki deputatlıq fəaliyyətini və gələn seçkilərdən gözləntilərini ifadə ediblər.

**RƏFİQƏ KAMALQIZI**

## Zaqatala və Balakən seçiciləri deputatlığa namizəd Kamilə Əliyevaya "HƏ" deyir





***111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Deputatlığa namizəd Kamilə Əliyeva növbəti görüşünü Zaqatalanın təhsil işçiləri və Balakənin Kortala kənd sakinləri ilə keçirib.***

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov, son 16 il ərzində ölkədə görülən işlərdən və həyata keçirilən uğurlu siyasətdən danışıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu dinamik inkişafını qeyd edərək, ölkəmizdə beynəlxalq layihələrlə yanaşı, ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin də uğurla icra edildiyini görüş iştirakçılarının diqqətinə çatdırıb.

Görüşdə öz fəaliyyəti barəsində məlumat verən deputatlığa namizəd Kamilə Əliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: "Aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır. İslahatlar ölkə vətəndaşının sosial durumunu xeyli dərəcədə yüksəldib, rayonlarda müasir infrastrukturlar yaradılıb. O cümlədən, ölkənin hər yerində olduğu kimi, Zaqatala və Balakən rayonları da abadlaşıb və inkişaf edib. Təbii ki, bütün bunlar Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilib".

Kamilə Əliyeva qeyd edib ki, mövcud inkişaf qarşıdakı illərdə daha geniş vüsət alacaq: "Seçicilərdən aldığım güc mənə enerji verir, qələbəyə yaxın olduğuma inam yaradır. Təbii ki, mənə ən doğma olan seçicilərimdən xoş sözlər eşitmək, dəstəklərini hiss etmək fərqli bir duyğudur".

Görüşlərdə seçicilər Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd Kamilə Əliyevaya yekdilliklə səs verəcəklərini bildiriblər.

**Zümrüd BAYRAMOVA**

## Nəsimi seçiciləri "Daha Güclü Azərbaycan Naminə" YAP-ın namizədi Məlahət İbrahimqızına səs verəcəklər

***Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi birinci Seçki Dairəsi üzrə vahid namizədi Məlahət İbrahimqızının 3-cü Mikrorayon A.Mustafayev 12 ünvanında seçicilər ilə görüşü keçirilib. Öncə, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin apardığı böyük islahatlardan və bu islahatların insanların rifahının güclənməsinə olan təsirindən, həmçinin, icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərdən söz açaraq, bunun parlamentimiz üçün də labüd olduğunu vurğulayıb.***





Görüş zamanı sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib və onların həlli istiqamətində yerindəcə addımlar atılıb.

Görüşdə təhsil işçilərinin İPOTEKA ilə mənzilalma şərtlərinin sadələşdirilməsi, yeni tikililərin - pilot layihələrinin işinə dövlət nəzarətinin artırılması və tikinti müddətində müntəzəm monitorinqlərin keçirilməsi kimi ümumi müraciətlər də səsləndirilib.

Sonda deputatlığa namizəd Məlahət İbrahimqızı bildirib ki, bugünədək görüşlərdə qaldırılan problemləri təhlil edir, həlli mümkün olan problemləri operativ tərzdə həll etməyə çalışır və qeyd olunan bütün məsələlərlə bağlı həftə içində hesabat verəcək.

Görüşün yekununda Yeni Azərbaycan Partiyasının vahid namizədi Məlahət İbrahimqızı seçiciləri "Daha Güclü Azərbaycan Naminə" Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Hikmət Babaoğlu seçicilərlə növbəti görüşünü keçirib

***Dünən parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlunun Nərimanov rayonu "Təbriz-95" ünvanında seçicilərlə görüşü keçirilib.***





Görüşü giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev 9 fevral parlament seçkiləri haqqında danışıb. 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizəd Hikmət Babaoğlunun fəaliyyəti haqqında məlumat verən T.Tağıyev deyib ki, o, 2015-ci ildə keçirilmiş parlament seçkilərində, məhz bu dairədən millət vəkili seçilərək Nərimanov rayon seçicilərini parlamentdə təmsil edib. Fəaliyyəti dövründə Nərimanov rayon seçiciləri ilə sıx təmasda olan Hikmət Babaoğlu ölkəmizin ictimai-siyasi həyatında da fəal iştirak edib.

Görüşdə çıxış edən deputatlığa namizəd Hikmət Babaoğlu Milli Məclisdə fəaliyyəti dövründə Nərimanov rayon seçicilərini layiqincə təmsil etməyə çalışdığını söyləyib. Onun sözlərinə görə, mütəmadi olaraq, seçicilərlə görüşlər keçirilib, onların qaldırdıqları məsələlər parlament tribunasından səsləndirilib, eləcə də, həll edilməsi üçün aidiyyəti dövlət qurumlarına ünvanlanıb: "Millət vəkili kimi fəaliyyətim ərzində vətəndaşlar tərəfindən ünvanımıza 118 şifahi və 97 yazılı müraciət daxil olub. Qeydə alınan 215 müraciətdən 100 müraciət tam olaraq həllini tapıb, 60 müraciət qismən təmin edilib, 40 müraciət aidiyyəti qurumlara göndərilib və yerdə qalan müraciətlərlə bağlı lazımi izahatlar verilib".

Deputatlığa namizəd onu da bildirib ki, demokratik siyasi sistemə malik olan Azərbaycanda seçkilər yerli qanunvericiliyə və beynəlxalq standartlara uyğun keçirilir: "Eyni zamanda, Azərbaycan siyasi palitrasının ən güclü ictimai-siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası mütəmadi qələbələr qazanır və seçki təcrübəsini daim artırır. YAP bu gün Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərir və uğurla inkişaf edir. Eyni zamanda, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində həm partiyamız, həm də dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub".

O, həmçinin, seçicilərə özünün ictimai-siyasi, elmi fəaliyyəti haqqında da məlumat verib. Hikmət Babaoğlu onu da deyib ki, seçicilərin müraciətlərini, onların qaldırdıqları problemləri yalnız YAP-ın namizədləri həll edə bilər. Buna görə də, 9 fevral seçkilərində seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən deputatlığa namizədin səlahiyyətli nümayəndəsi Nurulla Məmmədov, görüş iştirakçılarından Səmyar Abdullayev, Emin Həsənli və digərləri, ölkədə keçirilən hər bir seçkidə olduğu kimi, qarşıdan gələn parlament seçkilərində də YAP-ın namizədlərinin qələbə qazanacaqlarına və bu prosesdə cəmiyyət üzvlərinin aktiv iştirak edəcəklərinə əminliklərini bildiriblər. Qeyd olunub ki, 9 fevralda Nərimanov rayon gənclərinin seçimi YAP-ın namizədi Hikmət Babaoğlu olacaq.

Sonda deputatlığa namizəd Hikmət Babaoğlu seçicilərlə səmimi söhbət edib, onların fikir və təkliflərini dinləyib.

***RƏFİQƏ KAMALQIZI***

***Əmək və Sosial Münasibətlər Akademiyasında 9 fevral tarixində ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə irəli sürülmüş Kamaləddin Qafarovun seçiciləri ilə görüşü keçirildi. Görüşdə 500-ə yaxın seçici iştirak edirdi.***




## Binəqədi seçiciləri partiyanın namizədi Kamaləddin Qafarovu dəstəkləyirlər



Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov ölkəmizdəki seçki prosesi haqqında görüş iştirakçılarına məlumat verib. O, seçki qərargahının fəaliyyətindən, təbliğat kampaniyası çərçivəsində seçicilərlə olan çoxsaylı görüşlərdən danışdı. Bildirdi ki, ölkəmizdə 125 dairə fəaliyyət göstərir və 123 dairədə YAP-ın namizədləri təmsil olunur. R.Göyüşov namizədliyi irəli sürülmüş Kamaləddin Qafarovun Milli Məclisdəki fəaliyyətinə nəzər salaraq, bildirdi ki, o, gördüyü işlərlə artıq seçici nüfuzunu qazanıb. Sonra rayon təşkilatının sədri seçiciləri layiqli namizədə səs verməyə çağırdı.

Görüşdə çıxış edən Kamaləddin Qafarov bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsi olaraq, Azərbaycanın sürətli inkişafı təmin edilib, ölkə qarşısında yeni perspektivlər açılmasına şərait yaradılıb: "Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycanda bütün sahələr üzrə dərin məzmunlu islahatlar reallaşır. Aparılan islahatlar Azərbaycanın hərtərəfli inkişafına böyük təkan verir. Bütün bunlarla yanaşı, bu gün ölkənin qanunverici orqanında da dəyişikliklər aparılması zəruriətdən yaranmışdı ki, bu islahatlar da ölkəmizin daha da inkişafına və güclənməsinə yönəlib".

O, Prezident İlham Əliyevin xalqımızın bu günü və gələcəyinə hədəflənmiş hərtərəfli dinamik inkişafın, xalqımızın firavan yaşamasına hesablandığını vurğuladı. Qeyd etdi ki, bu gün Azərbaycan qlobal siyasətdə öz müstəqil siyasətini yeridən, bütün istiqamətlərdə öz milli maraqlarını təmin edən müasir bir dövlət olaraq, dünya dövlətləri arasında təsdiqini tapmışdır.

Kamaləddin Qafarov təmsil olunduğu səhiyyə sektorunda baş verən dəyişikliklərdən və oradakı inkişafdan da danışdı. Son illər Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatların həyata keçirilməsi, mühüm dövlət proqramlarının qəbul olunması ilə əhalinin sağlamlığı daha etibarlı şəkildə qorunur və vətəndaşlar ən yüksək səviyyədə tibbi xidmətlərlə qarşılanır. Həmçinin, Kamaləddin Qafarov icbari tibbi sığortanın əhəmiyyəti haqqında da söz açdı. Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi və səhiyyənin maliyyələşmə sisteminin təkmilləşdirilməsi də bu islahatların mühüm tərkib hissəsi olduğunu qeyd etdi. Bildirdi ki, icbari tibbi sığortanın məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə, əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir. O, çıxışının sonunda YAP-ın bu seçkilərə "Daha güclü Azərbaycan naminə" şüarı ilə qatıldığını bildirərək, seçicilərin etimadını qazanaraq, millət vəkili seçiləcəyi təqdirdə, bu etimadı doğrultmaq üçün çalışacağını vurğuladı və ona göstərilən yüksək etimadı doğruldacağına söz verdi.

Daha sonra seçicilər onları maraqlandıran sualları və narahat edən problemləri Kamaləddin Qafarova ünvanladılar.

Görüşdə çıxış edən seçicilər Bayram Əsədov, Çiçək Yusifova və digərləri partiyanın namizədi Kamaləddin Qafarova səs verəcəklərini bildiriblər.

Görüşün sonunda 9 saylı Binəqədi Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Kamaləddin Qafarovun fəaliyyətini əks etdirən video-çarx nümayiş olundu.

***Zümrüd BAYRAMOVA***

## Azərbaycan MDB ölkələrindən ən çox Rusiyaya məhsul göndərib



Ötən il Azərbaycan MDB ölkələri arasında ən çox Rusiyaya məhsul ixrac edib. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın MDB ölkələri arasında ən çox məhsul ixrac etdiyi ölkələr Rusiya, Ukrayna və Özbəkistandır. İl ərzində Rusiyaya ixrac olunan məhsulların dəyəri 731,8 milyon ABŞ dolları, Ukraynaya 340,5 milyon dollar, Özbəkistana isə 28,8 milyon dollar olub.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Cavid Osmanovun seçicilərlə görüşləri davam edir

***Yeni Azərbaycan Partiyasının 90 saylı Ağdaş Seçki Dairəsindən namizədi Cavid Osmanov növbəti görüşlərini Ağdaş şəhər seçiciləri ilə keçirib. Görüşləri açan Cavid Osmanov qeyd edib ki, bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hərtərəfli şəkildə inkişaf edir.***





Ölkəmizdə dərin və hərtərəfli islahatların həyata keçirildiyini diqqətə çatdıran Cavid Osmanov bildirib ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı, qayğıları və üzləşdiyi problemlərin həlli dayanır. Ölkə Prezidentinin milli maraqlara əsaslanan müstəqil siyasəti sayəsində Azərbaycan regionda və eləcə də, dünyada sabitlik və təhlükəsizlik adasına çevrilmişdir. Artıq dövlət hakimiyyətinin bütün qollarını əhatə edən islahatların qanunverici hakimiyyəti də əhatə etməsi ölkədə baş verən köklü yeniliklərdən irəli gələn sosial və siyasi sifarişdir. Deputatlığa namizəd seçiciləri parlament seçkilərində daha güclü Azərbaycan naminə fəal olmağa çağırıb.

Görüşdə çıxış edən seçicilər qeyd ediblər ki, Cənab Prezidentimizin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar kursunun mahiyyəti, onun əsas istiqamətləri və ilkin nəticələri göz önündədir. Xalq-hakimiyyət birliyi bu sabitliyi şərtləndirən həlledici amildir. Bu birliyi göz bəbəyi kimi qorumaq, onu daha da möhkəmləndirmək, Azərbaycanı daha da gücləndirmək naminə fevralın 9-da Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə - Cavid Osmanova səs verəcəklər.

***ZÜMRÜD BAYRAMOVA***

***Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cəfərov Nizami Qulu oğlunun yanvarın 28-də Ağstafa rayonunun Qırılı kəndində seçicilərlə görüşü keçirilib.***



## Ağstafalıların seçimi YAP-ın namizədi Nizami Cəfərovdur



Seçicilərlə görüşüb səmimi söhbət edən Nizami Cəfərov ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər haqqında danışıb, əhalinin rifah halı, sakinləri narahat edən məişət problemləri ilə maraqlanıb. Növbəti dəfə seçiləcəyi təqdirdə, rayon ərazisində görüləcək işlər haqqında məlumat verən YAP namizədi “Daha güclü Azərbaycan naminə!” şüarı ilə hər kəsi ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinin ətrafında daha da sıx birləşməyə və 9 fevral - seçki günü fəal olmağa dəvət edib.

Sakinlər də qarşıdan gələn parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini qeyd ediblər.

***RƏFİQƏ HÜSEYNOVA***

## YAP-ın deputatlığa namizədi Məlahət İbrahimqızının Nəsimi rayonu seçiciləri ilə növbəti görüşü keçirilib

***VI çağırış Milli Məclisə seçkilərdə 21 saylı Nəsimi birinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Məlahət İbrahimqızının Nəsimi rayonunun 5-ci mikrorayonun sakinləri ilə görüşü keçirilib.***





Görüşdə çıxış edən deputatlığa namizəd Məlahət İbrahimqızı 9 fevralda respublikamızda keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat və təşviqat kampaniyası çərçivəsində baş tutan görüşləri diqqətə çəkərək, bu görüşlərdə seçicilərin fəallıqla iştirak etdiklərini bildirib. Bunun seçicilərin vətənpərvər olmalarının və onların Möhtərəm Prezidentimizə və Birinci vitse-prezidentimizə sədaqətin göstəricisi olduğunu bildirib: “Hətta soyuq havada da mənimlə birgə bir neçə saat yorulmadan məhəllələrdə olmanız, sizin parlament seçkilərinə verdiyiniz əhəmiyyətdən irəli gəlir. Dövlətimizin daxili və xarici siyasəti ilə bağlı verdiyiniz önəmli suallara və siz seçicilərin ölkəmizdə son illərdə həyata keçirilən islahatları təqdir etməniz̄ə görə, hər birinizə öz adımdan və YAP Nəsimi rayon təşkilatı adından təşəkkür edirəm. Son görüşlərdə diqqət çəkən məqamlardan biri də odur ki, Siz Möhtərəm Prezidentimizin Davos İqtisadi Forumundakı çıxışlarını rəğbətlə qarşılayır və YAP tərəfindən irəli sürülmüş namizədləri dəstəkləyirsiniz. Bütün bunlar iqtidar partiyasının təmsilçiləri olaraq bizim məsuliyyətimizi siz seçicilərin qarşısında daha da artırır”.

Məlahət İbrahimqızı təbliğat və təşviqat kampaniyasının uğurla davam etdiyini və seçicilərin dəyərli təkliflərinə, tənqidlərinə, iradlarına və tövsiyələrinə çox ehtiyac duyulduğunu diqqətə çatdırıb: “Biz birgə daha güclüyük və Daha Güclü Azərbaycan Naminə vətəndaş həmrəyliyimizi bundan sonra da qorumalıyıq”.

Görüşdə seçicilər YAP-ın namizədinin səsləndirdiyi fikirlər ətrafında mövqelərini bildiriblər. Bütün digər seçkilərdə olduğu kimi, növbəti parlament seçkilərində də YAP-ın deputatlığa namizədinə səs verəcəklərini bildiriblər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*





## Aydın Hüseynov seçicilərlə görüşlərini davam etdirir

***Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 11 saylı Qaradağ Seçki Dairəsindən irəli sürülmüş Aydın Hüseynov seçiciləri ilə görüşlərini davam etdirir. Təbliğat-təşviqat kampaniyasının ilk günündən başlayaraq bütün qəsəbələrdə, məhəllə və evlərdə görüşlər keçirən Aydın Hüseynov Ələt qəsəbəsində seçicilərlə növbəti görüşünü keçirib.***

Əvvəlcə şəhid Təbriz Həsənovun doğum günü ilə əlaqədar evlərində olub, valideynləri və qonaqlarla xeyli söhbət etdikdən sonra şəhidin məzarını ziyarət edib.

Ələt qəsəbəsi ilə 30 ildən çox sıx bağlılığı olan Aydın Hüseynov keçirilən görüşlərdə YAP-ın Seçki Platforması barədə seçicilərə ətraflı məlumat verib. Bildirib ki, bu gün ölkəmiz durmadan irəliləyir, ölkə iqtisadiyyatı son illərdə öz inkişafının yeni və daha intensiv mərhələsini yaşayır: "Azərbaycanda keçirilən seçkilərdə hər zaman qələbə qazanan YAP-a göstərilən etimad qarşılıqlı inama, hörmətə və real işə söykənir. Mən də bütün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıram". Çıxış edən seçicilər YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ HÜSEYNOVA**

## XAÇMAZ

Dünən YAP Xaçmaz rayon təşkilatı parlament seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Eldəniz Səlimovun Hacıqurbanoba, Müşfiq, Qaraçı, Müzəffəroba, Köhnə Xaçmaz, Xaspoladoba, Gəncəli, Bəbəli, Əzizli kəndlərinin seçiciləri ilə görüşləri keçirilib.





Görüşlərdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu islahatlardan danışaraq, bildirib ki, məhz bunun nəticəsidir ki, ölkəmiz günü-gündən inkişaf edir, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır.

Görüşdə çıxış edən YAP tərəfindən parlament seçkilərinə namizədliyi irəli sürülən Eldəniz Səlimov ötən çağırışda fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib. YAP-ın namizədi seçki ərəfəsində olduqlarını və seçicilərin öz seçimlərində fəal olacaqlarına, düzgün mövqe nümayiş etdirəcəklərinə inandığını da söyləyib: "Sizləri layiqli və onların problemlərində yardımçı ola biləcək namizədlərə səs verməyə çağırıram. Azərbaycanın bugünkü inkişafı, onun regionun qüdrətli dövlət olaraq, adının hallanması və dünyada aparıcı imicinin qorunub-saxlanması naminə xalqın layiqli övladları Milli Məclisin üzvüləri seçilməlidir. Hər birinizi seçki günü ən real namizədlərə səs verməyə çağırıram".

Keçirilən görüşlərdə çıxış edən seçicilər bildiriblər ki, 9 fevral 2020-ci ildə keçiriləcək parlament seçkilərində YAP-ın namizədinə səs verməklə partiyamıza, dövlətimizə, dövlətimizin uğurlu siyasətinə və nəhayət, Ulu Öndər Heydər Əliyev ideyalarına səs vermiş olacağıq.

## OĞUZ

Dünən Oğuz rayonun 117 saylı Seçki Dairəsindən deputatlığa namizəd Aqiyə Naxçıvanlı rayonun Sincan, Mollalı, Tərkeş və Dəymədağlı kəndlərində seçicilərlə görüşlər keçirib.





YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov çıxış edərək ölkədə hər bir sahədə gedən inkişafdan, ölkə başçısının həyata keçirdiyi islahatlardan danışıb.

Deputatlığa namizədin vəkilləri isə çıxışlarında Yeni Azərbaycan Partiyasının seçki platforması və Aqiyə Naxçıvanlının fəaliyyəti haqqında məlumat veriblər.

Görüşdə çıxış edən Aqiyə Naxçıvanlı ölkə başçısı İlham Əliyevin apardığı böyük islahatlardan və bu islahatların insanların rifahının yaxşılaşdırılmasına olan təsirindən danışıb. O, əvvəlki deputatlığı dövründə gördüyü işlər barədə seçicilərinə hesabat verərək bildirib ki, onların problemləri ilə əlaqədar müvafiq qurumlara müraciət edərək, bir sıra sosial problemlərinin həll olunmasına nail olub.

Keçirilən görüşlərdə kənd sakinləri Elçin Xasıyev, Güleybət Rəşidova, Aidə Hacıyeva, Sənan Rəşidov və başqaları ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın inkişafından qürur duyuqlarını və yürütdüyü siyasəti dəstəklədiklərini bildiriblər.

Mollalı kənd sakinləri ilə görüşü zamanı Günel Hacıyeva, Kəmalə Cavadova, İradə Rəsulova və başqaları Aqiyə Naxçıvanlının əvvəlki deputatlığı dövründə kəndin məktəb binasının yenidən inşa olunmasına və zəruri ləvazimatlarla təmin edilməsinə, Qarabağ əlili Əvəz Zakirovun sağalaraq həyata qaytarılmasına etdiyi köməkliyə və daima onların problemlərini diqqətdə saxladığına görə minnətdarlıq etdilər. Seçicilər kənd yolunun asfaltlanması, qaz və internet xəttinin çəkilişi ilə bağlı köməklik olunmasını xahiş edərək, əminliklə fevralın 9-da keçiriləcək seçkilərdə iştirak edərək, layiqli namizədə səs verəcəklərini bildiriblər.

***

117 saylı Oğuz-Qəbələ Seçki Dairəsindən deputatlığa namizəd Aqiyə Naxçıvanlı təbliğat-təşviqat kampaniyası çərçivəsində seçiciləri ilə görüşlərdən vaxt ayırıb, Oğuzda yaşayan Yəhudi İcmasının üzvləri ilə görüşdü. Çay süfrəsi arxasında keçən görüş zamanı Aqiyə Naxçıvanlı görüşə gələn icma nümayəndələrini salamladı.



Ardı Səh. 13

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını ugurla davam etdirir*

əvvəli səh. 12

O, qeyd etdi ki, Azərbaycanda multikulturalizmin dövlət siyasəti kimi əsasını qoyan Ümummilli Lider Heydər Əliyev olub. Müasir dövrdə bu siyasət əzmlə davam etdirilir və beynəlxalq müstəvidə mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına güclü təsir göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan multikulturalizmin mərkəzinə çevrilib.

O, ölkəmizdəki multikultural, tolerant mühitin üstünlüklərindən, Azərbaycanın bu istiqamətdə əldə etdiyi uğurlardan, dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin multikulturalizmin, o cümlədən, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı sahəsində həyata keçirdiyi layihələrdən, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda bu sahədə əldə edilən nailiyyətlərdən danışdı.

Ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə çatması Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsi olduğunu vurğuladı.

Görüş zamanı icma üzvlərindən Sadıq Natalinov, Aftin Simanduyev, Rafiq Liviyev, Asif Abramov, Teymur Natalinov və Rəsul Sefenyayev dövlətin onlara yaratdığı imkan və şəraitdən razılıqlarını bildirdilər. Bunun üçün dövlət başçısına, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər. Azərbaycanın onlar üçün doğma olduğunu, illərlə bu torpaqlarda azərbaycanlılarla mehriban şəraitdə yaşadıqlarından, bir-birlərinin xeyirində-şərində qarşılıqlı iştirak etməklərindən və bu bağların illər ötdükcə daha da möhkəmləndiyindən danışdılar. Hətta müxtəlif səbəblərdən İsrail dövlətinə gedərkən, vətən hesab etdikləri Azərbaycan üçün darıxdıqlarını söylədilər.

Qarşılıqlı şəkildə səmimi keçən görüş zamanı ötən günlərdən xoş xatirələr anıldı.





## SABUNÇU

Dünən Sabunçu qəsəbəsində 27 saylı Sabunçu ikinci Seçki Dairəsindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Əliabbas Salahzadənin seçicilərlə növbəti görüşü keçirilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva YAP tərəfindən Milli Məclisə namizədliyi irəli sürülən Əliabbas Salahzadənin həyatı və fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verib. M.Abasquliyeva çıxışı zamanı qeyd edib ki, partiyanın rayon təşkilatı ölkədə keçirilən bütün seçkilərə ciddi şəkildə və qələbə əzmi ilə hazırlaşır: "Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatı partiyanın "Daha güclü Azərbaycan naminə!" şüarını rəhbər tutaraq, namizədlərin təbliğatını fəal şəkildə həyata keçirir. Sabunçuluların, bütün seçkilərdə olduğu kimi, bu seçkilərdə də fəal olacaq və bu seçkidə də mütləq səs çoxluğu ilə YAP namizədləri qələbə qazanacaqlar".

Deputatlığa namizəd Əliabbas Salahzadə görüşdə öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Əliabbas Salahzadə seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağına inandığını və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını və seçicilərin etimadını doğrultmağa çalışacağını söyləyib.

Görüşdə çıxış edən seçicilər 9 fevralda keçiriləcək parlament seçkiləri zamanı hamılıqla YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ HÜSEYNOVA,**
**RÖVŞƏN RƏSULOV**

# Beynəlxalq aləmdə Azərbaycan multikulturalizm siyasətinin təbliğatı uğurla davam etdirilir

***17-19 yanvar, 2020-ci il tarixlərində Azərbaycanın Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi İctimai Birliyi, Beynəlxalq Multikultural Şəbəkəsinin rəhbəri dr. Xəyalə Məmmədova və heyəti Şimali Kiprə dəvət almışdır.***

Dəvət proqramına əsasən, heyət ilkin olaraq, On Beş Kasım Universitetinin təşkil etdiyi "Aralıq dənizi İpək Yolu araşdırmaları" adlı Beynəlxalq Simpoziumda iştirak edib. Beynəlxalq Simpoziumda əsas spikerlər kimi Beynəlxalq Multikultural Şəbəkənin rəhbəri Xəyalə Məmmədova "İpək Yolu: İnsanların əlaqələndirilməsi və Azərbaycanda Multikulturalizm siyasətinin formalaşması" mövzusunda, Beynəlxalq Multikultural Şəbəkənin Marketinq Meneceri Muhammad Umar "Pakistan və İpək Yolu vasitəsilə əlaqələndirilmənin çətinlikləri" mövzusunda, Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi İctimai Birliyinin Çin Elmi-Araşdırmalar Mərkəzinin koordinatoru Ümid Məmmədzadə "Dünya Turizm Bazarında Böyük İpək Yolunun tanıtımı" mövzusunda, Beynəlxalq Multikultural Şəbəkənin elmi-araşdırıcısı Günay Məmmədli "Xəzərdə regional əməkdaşlığı şərtləndirən amillər" mövzusunda çıxış edərək, simpoziumu açıq elan etdilər. Simpoziuma Türkiyə, Şimali Kipr, Gürcüstan, Qazaxstan, Ukrayna, Portuqaliya, İspaniya, İran və digər ölkələrdən dəyərli elm adamları qatılaraq, mövzu ilə bağlı maraqlı elmi-araşdırmalarını paylaşdılar.

İkinci hissədə, Beynəlxalq Multikultural Şəbəkənin rəhbəri Xəyalə Məmmədova, ənənəsinə sadiq qalaraq, "Azərbaycan multikulturalizm modeli" adlı çıxışını təqdim etdi. Çıxışında qeyd etdi: "Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Bundan başqa, multikulturalizmi dövlət siyasəti kimi qəbul edən digər ölkələrdən fərqli olaraq, Azərbaycanda etnik-mədəni müxtəlifliklər multikulturalizm siyasəti vasitəsilə uğurla və səmərəli şəkildə tənzimlənir.






Qeyd edək ki, Beynəlxalq Multikultural Şəbəkənin Şimali Kiprdəki təmsilçisi On Beş Kasım Universitetinin prorektoru dr. Haktan Birsəldir. Simpoziumun sonunda iştirakçılar sertifikatlarla təltif olunublar.

Tədbirdən sonra Beynəlxalq Multikultural Şəbəkənin rəhbəri Xəyalə Məmmədova və Marketinq Meneceri Muhammad Umar Kiprin tanınmış telekanallardan olan Kipr Gənç TV-yə "Xəbərlər" verilişinin qonağı olublar. Verilən sualları əsasında Xəyalə Məmmədova və Muhammad Umar qeyd etdilər ki, "Müasir dövrdə multikulturalizm Azərbaycanda əhəmiyyətli rol oynayır. Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Ölkəmizdə multikultural cəmiyyətin yaranıb inkişaf etməsində coğrafi faktorun rolu da böyük olmuşdur.

Daha sonra Beynəlxalq Multikultural Şəbəkənin heyəti On Beş Kasım Universitetinin rektoru tərəfindən dəvət olunaraq, gələcəkdə bir sıra sahələrdə aparacaqları əməkdaşlıqları ilə bağlı memorandum imzaladılar.



Eyni zamanda, Beynəlxalq Multikultural Şəbəkənin rəhbəri və heyəti Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri, Millətlərarası Təhsil Proqramları Departamentinin direktoru Orxan Həsənoğlunun dünyanın tanınmış universitetlərindən olan, Türkiyə və Şimali Kiprin ilk özəl universiteti sayılan Girnə Amerikan Universitetində qonağı oldular. İlk öncə, Girnə Amerika Universiteti ilə yaxından tanış olunduqdan sonra rəsmi görüş təşkil edildi. Rəsmi görüşdə, eyni zamanda, Girnə Amerikan Universitetinin marketinq Koordinatoru Leyla Biçər, Marketinq mütəxəssisi Aida Buzqulova və digər rəsmi nümayəndələr yer aldı.

Rəsmi görüşün sonunda Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri, Millətlərarası Təhsil Proqramları Departamentinin direktoru Orxan Həsənoğlunun bu sahədə əldə etdiyi nailiyyətlər və uğurlarına görə Beynəlxalq Multikultural Şəbəkənin beynəlxalq sertifikatı təqdim edilərək, uğurlarının davamlı olması bildirildi.

**TƏHMASİB NOVRUZOV**

# "Bəzileriniz hər saniyə həyəcan içində deport olunacağınızı gözləyirsiniz" - MÜSAVAT AKM CİNAYƏTİ




***Müsavat partiyasının "Avropa Koordinasiya Mərkəzi" rəhbərliyi cinayət tərkibli əməlləri ilə Alman dövlətinə böyük xəyanət edib. Bu barədə Avropada yaşayan jurnalist Yafəz Əkrəmoğlu "AKM"-in sıravi üzvlərinə müraciətində deyib.***

Müraciətdə bildirilir: "Yəqin ki, istintaqa çağırılmısınız, yaxud çağırılacaqsınız. Çağırılmamısınızsa, özünüz istintaqa müraciət edin. Çəkinmədən təşkilatda baş verənləri danışın. Kim nə bilir, nə eşidib, nə görüb onu danışsın, artıq-əskik heç nə yox. Onsuz da, "AKM" rəhbərliyinin təşkilatdakı az qala bütün əməlləri cinayət tərkiblidir. Bilirəm, əksəriyyətiniz neqativ qərarlar almısınız, bəzileriniz hər saniyə həyəcan içində deport olunacağınızı gözləyirsiniz. "AKM" sizi aldadıb, arayışlar verib (satıb) deyib ki, qorxmayın, arxanızda durmuşuq, oturum alacaqsınız. Nəyəsə etiraz etmək istəyəndə isə, BAMF-yə məktub yazıb, sizi deport elətdirəcəkləriylə hədələyiblər".

## İstintaqda həqiqətləri danışsalar, "AKM" qurbanlarını nə gözləyirə

Y.Əkrəmoğlu onu da vurğulayıb ki, əgər "AKM"-in sıravi üzvləri həqiqəti danışsalar, istintaqa yardım etmiş olarlar: "Belə olan halda, istintaq üçün vacib şahidə çevrilirsiniz. Vacib şahid olduğunuz üçün isə, ən azı, istintaqın sonuna qədər heç kim sizi deport etməyəcək. Çünki prosedur bunu tələb edir, belə bir qanun var. Buna əmin olun. Bu qanunu vəkillərinizlə də dəqiqləşdirə bilərsiniz. İstintaqsa, ən azı, 1-2 il çəkəcək. İstintaq davam edərkən, deportunuz dayandıqdan sonra növbəti azulluğa (sığınacaq üçün müraciət-red) baş vura bilərsiniz. Bu dəfə şansınız daha çox olacaq. Niyəə İlham Həsən başda olmaqla, "AKM" rəhbərliyi cinayət tərkibli əməlləri ilə Almaniya dövlətinə böyük xəyanət edib. İşin içərisində elə məsələlər var ki, heç birinizin xəbəri yoxdur, heç ağlınıza da gəlməz. Siz "AKM"-də indiyə kimi baş verən həqiqətləri danışmaqla, alman dövlətinə yaxşılıq etmiş olacaqsınız. Bu dövlət xəyanəti bağışlamadığı kimi, yaxşılığı, sədaqəti də qiymətləndirməyi bacarır. Siz də həqiqəti danışın, yaxşılığınızı edin, bəhrəsini görəcəksiniz. Unutmayın ki, əgər "AKM"-dən hər hansı sənədi puluyla almısızsa belə, buna görə siz heç bir məsuliyyət daşımırsınız. Buna əmin olun! Siz bu məsələdə qurbansınız, zərərçəkənsiniz. Fırıldaqçılar sizi aldadıb, pulunuzu əlinizdən alıblar. Onsuz da, neqativ qərarlar almısız və itirəcək heç nəyiniz də yoxdur".

## "Cinayətkarlar artıq izlənirlər və bunu özləri də bilirlər"

Almaniyada yaşayan jurnalist əlavə edib ki, kimliyindən asılı olmayaraq, istintaq həqiqəti deyənlərə, demək istəyənlərə dəstək olacaq: "Heç kimdən çəkinməyin, qorxmayın. Cinayətkarlar artıq izlənirlər və bunu özləri də bilir. Ona görə də, artıq təhdid olunmayacaqsınız. Onlar 5-10 nəfər həbsini gözləyən cinayətkardır. Ancaq həqiqəti danışsanız, sizin arxanızda Almaniya dövləti duracaq".

Xatırladaq ki, ötən ay Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıblar. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi Elçin Əkbərov, Müsavat partiyası "Avropa Koordinasiya Mərkəzi"nin sədri, Kəlbəcər rayonunun sabiq icra başçısı İlham Həsən, Müsavat partiyasının üzvü, "Müsavat AKM" sədrinin müavini Mehdi Xəlilbəyli, Müsavat AKM-in üzvü Abdin Cavadov, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı, "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi Əlövsət Əliyev, Mehdi Xəlilbəylinin sürücüsü Rəşad Məmmədov və Müsavat partiyasının üzvü Elşən Abdullayevdir.

Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən, 3-10 min avro arası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinirlər.

Məsələ ilə bağlı araşdırmalar isə davam etdirilir.

***Rövşən NURƏDDİNOĞLU***



RƏFİQƏ

## Misterlər və serlər...

***Bu, o misterlər və serlərdir ki, Azərbaycanda hər hansı bir yüksək səviyyəli tədbirlər ki, keçirilir, o zaman başlayırlar ağı qara görməyə. Elə növbəti parlament seçkiləri ərəfəsi ağı qara görənlər bu mövzu ətrafında yavaş-yavaş "mülahizələr" etməyə. Deyirəm, nə qədər yalan danışarlar. Bəs niyə yalan danışmaqdan kor olmurlar? Cavab aydındır.***

Çünki daima belə olublar, heç düzələsi də deyillər. Ölkəmizə qarşı qərəzli çıxışları ilə yadda qalan həmin ağı qara görən misterlər və serlər burunlarını ölkəmizin daxili işlərinə dürtməyə, bir növ adətkar olublar. Elə bu günlərdə "Human Rights House" adlı qərəzli təşkilatın rəhbəri, özünü "ağıllı-kamallı" "hüquq müdafiəçisi" hesab edən Florian İrminqer Azərbaycanda baş tutacaq 9 fevral parlament seçkilərilə bağlı müsahibəsində çox anlaşılmaz, heç bir məntiqə sığmayan və düşüncə tərzi bəlli olmayan fikirlər səsləndirib. Məsələn, "ağıllı-kamallı" hüquq müdafiəçisinin sözlərinə görə, "əgər Avropa Parlamenti, ATƏT, Avropa Şurası və ya BMT, hökumətin yaratdığı şəraitdən razıdırlarsa, belə bir vəziyyət məqbul sayıla bilməz..." (?-R.). Bu adam iddia edir ki, əgər Azərbaycanda seçkilərin favoriti, alternativsiz lideri varsa, demək, seçkilər "saxtalaşdırılıb". Əslində, belə təşkilatlar ucuz qərəzləri cəmiyyət tərəfindən dəstəklənmir. Buna rəğmən, onların əsassızlıqları bir daha onların üzlərinə vurulmalıdır.

Demək, bunların özləri öz prinsiplərinə qarşı çıxırlar. Bu fərd seçkilər haqqında tamamilə zidd fikirlər səsləndirərək, bütövlükdə, müxalifət yetkililərindən fərqli olmayan ifadələr işlədib. Deməli, belə çıxır ki, BMT, Avopa Parlamenti, ATƏT, Avropa Şurası "fuflodu", yəni nəyəsə qadir olan təşkilatlar deyil, yalnız əsas Azərbaycandakı bir-iki siyasiləşmiş və onun-bunun cibinə görə QHT-nin və bir neçə xarici təşkilatın rəyidir. Elə bil, Qərb ölkələrində "ən şanslı namizəd", seçkinin "favoriti" və "lideri" anlayışı yoxdur. Demək, bunların özləri öz prinsiplərinə qarşı çıxırlar. Yəni Qərb ölkələrində favorit olmaq olar, burada olmaz. Bax, elə məntiqsizlik də budur! Əgər vətəndaş cəmiyyəti institutları, beyin mərkəzləri və sadə insanlar hansısa namizədi ən şanslı hesab edirlərsə və bunu aşkar bildirirlərsə, burada "qeyri-demokratik" kimi yozula biləcək nə var axı?

"Human Rights House" və onun kimi bəzi təşkilatlar müəyyən dairələrin siyasi və iqtisadi maraqlarının daşıyıcılarıdır. Buna görə də, onların əsassız rəyləri, qondarma proqnozları, nəticəsiz iddiaları reallıqdan uzaq və kifayət qədər də qərəzlidir.




# Müxalifət zərərverici həşərata bənzəyir

***Siyasi proseslərə qatıldıqlarından bu günə qədər müxalifət partiyaları və onların üzdə olan funksionerləri Azərbaycanın milli və dövlətçilik maraqlarına zərbə vurmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə etməyə çalışırlar. Müsavat başqanı Arif Hacılı Avropaya səfərləri zamanı azərbaycanlı mühacirlərlə görüşlərində, onları Azərbaycanın dövlətçilik maraqlarına zərbə vurmağa təhrik edibsə, AXCP sədri Əli Kərimli ölkəmizə gələn beynəlxalq təşkilatların nümayəndələrinə hakimiyyət və xalqımız haqqında təhqiramiz və böhtan xarakterli informasiyalarla çıxış edib.***

Cəmil Həsənli, Gültəkin Hacıbəyli, İsa Qəmbər və digərləri də eyni ampluadan çıxış ediblər. Bu günlərdə ölkəmizə gələn Avropa İttifaqının seçki bürosunun nümayəndələri ilə görüşdə də Arif Hacılı, Cəmil Həsənli, Əli Kərimli və digərləri yenə də, ənənələrinə uyğun olaraq, ölkəmizdə insan hüquqlarının pozulması, demokratiyanın zədələnməsi ilə bağlı şər və böhtan xarakterli məlumatlarla çıxış ediblər. Bu üzdəniraq müxalifət partiya sədrlərini xalqımıza və dövlətimizə qarşı düşmən mövqedən çıxış etməyə kimlər və hansı məqsədlə təhrik edirlər? "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov bildirdi ki, xarici maraqlı dairələr ölkəmizin uğurlarına kölgə salmaq üçün ələbaxım müxaliflərdən istifadə etdiklərini bildirib: "Bunun iki başlıca səbəbi var. Birincisi öyrəncəli olmalarıdır. Atalar, bir az biədəb olsa da, bu tip adamları bir cümlə ilə təyin edib: öyrənmişə tövbə yoxdur. Bunlar öyrənmişlərdi və bunlara barmağının beşini də bal edib yedirtsən, deyəcəklər ki, mənə zəhər verdi. Anlaya bilmirəm, demokratiya harda, necə zədələnib? Zədələnən bir qüvvə varsa, o da, bizim bəzi müxaliflərimizdir. Onlar da düz otuz ildir zədələrini düzəltməyə çalışsalar da, yeni zədələrlə qınlarına çəkilməli olurlar. İndi necə olsun, hakimiyyət zədəli siyasət dəllallarının fikirləri ilə idarə etməlidi ölkəni? İkinci səbəb də ondan ibarətdir ki, bu zavalını çoxdan itirmişlərin ixtiyarları öz əllərində deyil. Gah Qərbdən, gah Şimaldan, hərdən bir hətta Cənubdan gələn sifarişlər və bu sifarişlərə verilən milyonların təsirindən necə çıxsınlar? Konkret dağıdıcı müxalifət xaricdən gələn maliyyənin təsirindən çıxa bilmir. Onların təsirindən çıxsalar, ac qalarlar, axı! O insafsızlar da, bunlardan elə tələblər edirlər ki, nə yerə sığır, nə də göyə. Yerə-göyə sığmayan bu tələbləri də, məcburdurlar alacaqları tulapayı xatirinə yerinə yetirsinlər. Satqın və xəyanətkar müxaliflər xaricə işləməklə, maddi gəlir əldə etməyə çalışırlar. Amma unudurlar ki, indi bu xalq otuz il əvvəlki xalq deyil. İndi insanlar ağla-qaranı, yaxşıyla pisi seçmək iqtidarındadır və seçir də!"

***GÜLYANƏ***

# Radikal müxalifətin demokratiya böhranı

*Bu düşərgə təmsilçiləri xalqla yox, bu xalqın əleyhinə olanlarla təmasda olmağa daha çox üstünlük verirlər*

***Bəşəriyyətin inkişaf tarixinin müasir mərhələsi aydın göstərir ki, istənilən cəmiyyətin və onun yaratdığı dövlətçiliyin tərəqqisində ən vacib aspektlərdən biri demokratiyanın təşəkkül tapmasıdır. Çünki xalq idarəçiliyinin mövcud olmadığı idarəetmə sistemində hər zaman bu və ya digər qüsurlar, nöqsanlar özünü büruzə verib və verməkdədir.***

Qeyri-demokratik üsul-idarənin mövcud olduğu dünya dövlətlərinə nəzər yetirməklə, bunun bariz nümunələrini aydın görmək mümkündür. Ötən əsrin son onilliyində kifayət qədər mürəkkəb bir şəraitdə dövlət müstəqilliyini əldə edən Azərbaycan xalqı totalitar idarəçilikdən xilas olsa da, müstəqilliyin ilk illərində hakimiyyətdə olan səriştəsiz və yalnız öz mövqelərini güdən qüvvələr üzündən xaotik idarəetmənin qurbanına çevrildi. Xüsusən də, AXC-Müsavat cütlüyünün iqtidarda olduğu 1 il ərzində, vəziyyət o həddə yüksəldi ki, qanunun ayaqlar altına atılması, insanların ən adi elementar hüquqlarının məmurlar tərəfindən pozulması normaya çevrildi. Hakimiyyətdə yer alan və bir-birinə, hətta qanunun tələblərinə uyğun olaraq, tabe olmaq istəməyən şəxslər, xalqa bununla aydın göstərdilər ki, onların idarəçilik qabiliyyəti və təfəkkürü yalnız bu xaosu yaratmağa çatır. 1993-cü ildən etibarən Azərbaycan demokratiya yolunda artıq böyük bir məsafə qət edib. Avroatlantik məkana inteqrasiya kursu seçən və bu istiqamətdə mühüm nailiyyətlərə imza atmağı bacaran Azərbaycanda demokratik dəyərlərin daha möhkəm özüllər üzərində bərqərar olaraq davamlı inkişafı indi də xüsusi diqqət mərkəzində yer alır. Bu səbəbdəndir ki, ölkəmizdə müasir dünya tələblərinə uyğun demokratiya mühiti formalaşıb və bu mühitin daha zəngin xarakter alması istiqamətində görülən işlərin miqyası daim genişlənir. Azərbaycanda söz və fikir azadlığının, siyasi plüralizmin, çoxpartiyalı sistemin mövcudluğu, vətəndaşların azad seçiminə yüksək şərait yaradılması, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlər, qazanılan digər uğurlar da qeyd olunanların məntiqi nəticəsidir. Hakimiyyətin bölgüsü prinsipinin, ictimai həyatın bütün sahələrində konstitusiya qanunlarının aliliyi, dövlətin yalnız konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərməsi, dövlət tərəfindən insan və vətəndaş hüquqlarının, azadlıqlarının tanınması, dövlətlə şəxsiyyət arasında qarşılıqlı məsuliyyət, beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarının üstünlüyü müasir Azərbaycanın xarakterik cizgiləridir. Bunlar, eyni zamanda, həm də demokratiyanın əsas cəhətləridir. Demokratiyanın ən vacib kateqoriyaları sırasında yer alan azad, şəffaf seçkilərin, ümumxalq



səsvermələrinin keçirilməsi sahəsində də Azərbaycan qazanılan nailiyyətlərin miqyası baxımından, seçilən ölkələr sırasında yer alır. Artıq ölkəmizdə beynəlxalq standartlara cavab verən seçki keçirmək ənənəsi formalaşıb və bu istiqamətdə möhkəm qanunvericilik bazası yaradılıb, ancaq seçki praktikası isə daim təkmilləşdirilir.

Təəssüf ki, bunu görməzlikdən gələn və Azərbaycanın sürətli, demokratik inkişafından narahat olanlar da az deyil. Bu səbəbdən, zaman-zaman Azərbaycanın ünvanına səsləndirilən böhtanlara da rast gəlinir. Sözügedən kontekstdə, demək olar ki, bütün fəaliyyəti qarayaxma kampaniyasından ibarət olan ifrat radikal müxalifət düşərgəsi, xüsusilə, seçilir. Azərbaycan əleyhinə fəaliyyət göstərən, ölkəmizə böhtan və yalan yağdıran istənilən kənar qüvvə ilə böyük həvəslə əməkdaşlığa hazır olan və onların ruporuna çevrilən müxalifət bununla həm də antiazərbaycançı bir mövqedə olduğunu göstərir.

Müxalifətin dağıdıcı qanadı, xüsusən də, AXCP və Müsavat partiyası, onlara bağlı KİV-lər və sosial şəbəkə səhifələri durmadan ölkədə demokratiya boğulduğunu iddia edir. Xüsusilə, postseçki dövründə bu kimi iyrənc əməllər daha çox nəzərə çarpır. Lakin görünür, onların demokratiya anlayışı 1992-ci ildəki xaotik vəziyyətdən o yana keçə bilmədiyindən, bu sərsəm fikirlərdən əl çəkə bilmirlər. Yoxsa bilərdilər ki, hakimiyyətin ünvanına az qala hər gün ən sərt formada tənqidlər, bəzən isə təhqirlər səsləndirmələri, bunları nəzarətlərində saxladıqları qəzetlərin səhifələrinə daşıya bilmələrinin özü, Azərbaycanda əsl demokratiyanın mövcudluğunun real nümayişidir. Çünki belə fikirlərinə görə hakimiyyət tərəfindən müxalifətə heç bir irad tutulmur və təzyiq göstərilmir. Əksinə, onlara məxsus qəzetlərin dövlət nəşriyyatına olan borcları ölkə Prezidenti tərəfindən silinir. Hətta həmin qəzetlərə Prezident, eləcə də, dövlət tərəfindən yaradılan müvafiq qurum səviyyəsində maliyyə yardımları edilir. Amma nədənsə, bütün bunları açıq etiraf etməkdən radikal müxalifət çəkinir və bunları heç dilinə də gətirmək istəmir.

Əvəzində, Azərbaycanın əleyhinə fəaliyyət göstərən qüvvələrin, xarici qeyri-hökumət təşkilatlarının hər hansı anti-Azərbaycan xarakterli açıqlamaları müxalifətin əlində şüara çevrilir. Məsələn, xaricdəki ermənipərəst siyasi dairələrin nümayəndələri, habelə, bəzi ölkələrdə ermənipərəst qanunvericilərin Azərbaycan əleyhinə ifadələr səsləndirmələri dağıdıcı müxalifətin ən sevimli şüarları sırasında yer alır. Bəzi müxalifət funksionerləri, onların nəzarətində olan qeyri-hökumət təşkilatları isə xaricdən aldıqları pullar hesabına Azərbaycana qarşı istənilən məkanda istənilən cəfəng fikirlər səsləndirməyə hazır olduqlarını dəfələrlə nümayiş etdiriblər.

Burada daha bir maraqlı məqamlardan biri dağıdıcı müxalifətin daim ölkə xaricində özünə dayaq axtarmasıdır. Bunun üçün, hətta ermənilərlə də müqavilə imzalayırlar. Məsələn, Müsavat partiyasının keçmiş başqanı İsa Qəmbər "Ermənistan Ümummilli Hərəkatı" ilə qarşılıqlı əməkdaşlıq haqqında bəyannamə imzaladığını heç gizlətmir də. Halbuki Azərbaycana qarşı təcavüzkar siyasət yürüdən erməni ideoloqları bir neçə mərkəzdən idarə olunur ki, onlardan biri də Ermənistan Ümummilli Hərəkatıdır. Azərbaycana qarşı təcavüz siyasətinin reallaşmasında da bu hərəkatın rolu az deyil. 2005-ci il parlament seçkiləri öncəsi AXCP üzvü Ruslan Bəşirlinin Gürcüstanda ermənilərlə partiyası adından əməkdaşlığa dair razılıq əldə etməsi də, elə bu qəbildən olan haldır. Bütün bunların Ə.Kərimlinin xəbəri olmadan həyata keçirilməsi isə, heç də inandırıcı görünmür. Yeri gəlmişkən, qeyd edək ki, elə radikal müxalifət düşərgəsinin əksər təmsilçiləri tez-tez biri-birilərini müxtəlif xarici ölkələrin agentləri olmaqda ittiham edirlər və bununla bağlı konkret sübutlara malik olduqlarını bəyan edirlər. Halbuki demokratiyadan dəm vuran müxalifət yaxşı bilməlidir ki, istənilən məsələdə dəstək xalqdan gəlməlidir, daha bu xalqın əleyhinə fəaliyyət göstərən kənar qüvvələrdən yox. Bütün bunlar onu göstərir ki, müxalifət öz hakimiyyət iddiasını reallaşdırmaq üçün istənilən yola baş vurmağa, hətta iğtişaşlar törətməyə belə hazırdır. Xaricdən alınan maliyyə yardımları ilə təşkil olunan mitinqlər də bunun real sübutudur. Müxalifətin demokratiya anlayışının daha bir qabarıq ifadə tərzi bu düşərgə daxilində cərəyan edən son proseslərdə də özünü göstərir. Məsələn, fəaliyyəti bir müxalifət partiyası olaraq fiaskoya uğrayan, cüzi elektoratını da hər seçkilərdən sonra itirən Müsavat partiyasını tərk edənlərə, artıq bu partiya tərəfindən düşmən münasibəti bəslənir. Budur, ifrat radikal müxalifətin iç üzü, demokratiya anlayışı. Budur, ölkənin müxalifəti. Belələrinin, təbii olaraq, xalq arasında heç bir dayağı və dəstəyi yoxdur. Bu səbəbdəndir ki, ifrat radikal müxalifət xalqla yox, bu xalqın əleyhinə olanlarla təmasda olmağa daha çox üstünlük verir və demokratiya maskası geyinərək, öz varlıqlarını yaşatmaq istəyirlər.

**Rövşən RƏSULOV**



**Təhmasib Novruzov**

## Bu günə bir, sabaha min şükür...

Bizim bəzi arxiv qoxulu müxaliflərimiz həmişə deyirlər ki, biz iqtidaryönlü (oxu:dövlətçi) qəzetləri oxumuruq. Niyəsini soruşanda da, amplualarına uyğun bir görkəm alıb deyirlər ki, onlar obyektiv yazmırlar, nə bilim, onlar xalqın istəklərini (?) ifadə etmirlər və sair və ilaxır. Amma indi mənə məlum oldu ki, onlar burda da yalan danışırlar. İndi mən onların yalan danışdıqlarını xırıd eliyim, siz də əmin olun ki, haqlıyam.

Ötən həftə əlimi dinc qoya bilmədim, yazıfason bir şey qələmə aldım. Sağ olsun "Səs" qəzetinin başbilənləri, qələmimdən kağıza köçürdüyüm bu yazını qoydular səhifələrdən birinə. Pa!... At getdi, örkən də düşdü onun dalınca. Zəng-zəng dalınca, telefondan qurtarıb keçdilər sosial şəbəkəyə. Hamısı da həmən arxiv qoxulu müxalifətin trolları. Yazıda söhbət ondan gedirdi ki, bir az yazıb-oxumaq bilən, göydələnlər tikib kasıb camaata kvadratı üç-dörd minə satan da, bir vaxtlar vəzifədə olub, yarıtmaz fəaliyyətinə görə kənara itələnən də, təəssüf ki, Vətən uğrunda döyüşən bəzi vətənpərvərlərimiz də, hər kəs düşüb ortalığa ki, mən gərək deputat olam. Özü də hamısı deyir ki, ən layiqli namizəd elə mənəm. Mən də təşviqat başlayan kimi bu vəziyyəti seyr eliyib, ürəyimdən keçənləri şöttələdim kağıza, axırda da oldu bir "Köşə yazı"sı! Çıxış yolu da onu yazmışdım ki, niyə müəllim, həkim, mədəniyyət işçisi, dövlət məmuru olmaq istəyənlər testdən, yəni imtahandan keçir, amma ölkənin idarə olunması üçün Qanunlar hazırlayan bir Ali Orqana namizəd olanlar imtahandan keçməsinlər? Bax, sən demə, bizim özünü qəhrəman sayan trollarımızın başbilənlərini narahat edən də elə bu imtahan məsələsi olubmuş. Biri deyir ki, bu, dövlətin (?) yeni siyasi oyunudu, o biri qanadlarını çalıb banlayır ki, bu, iqtidarın bizə qarşı təxribatıdır. Anlaya bilmirəm, bu iqtidar o qədər boş-bekardı ki, olmayan bir zada qarşı nəsə qurmaq istəsin? Amma onu anlayıram ki, bunlar hələ də de-fakto olmadıqlarının fərqində deyillər. Yoxsa özlərini o qədər güclü hesab edib deməzdilər ki, siyasəti ilə dünyanı mat qoyan belə güclü hakimiyyət onlara qarşı təxribat planlaşdırır! Bunları qandırıb, başa sala bilmədim ki, ay demokratiya deyib bağıranların trolları, mən də demokratam və bu da, mənim düşüncəmdi. Kim istəyər razılaşar, istəməz razılaşmaz. Yəni bu demokratik ölkədə demokratiyanın dəyərlərindən istifadə hüququ təkcə müxtəlifyönlü... üzr istəyirəm, müxalifətyönlü siyasilərə verilib? Bir-ikisini zorla qandırıb, başa sala bilsəm də, qalanları tutuquşu kimi, özləri səviyyədə başqanlarının dediyinin yeganə həqiqət olduğunda israrlı qaldılar. Beləcə, bizim müxalifətimizin nə qədər aşağı səviyyədə olduğunun bir daha şahidi oldum və həm təəssüfləndim, həm də bir azca sevindim. Təəssüfləndim ki, bizim kimi gözəl, əxlaqlı, hər şeyin yerini bilən səmimi bir xalqın müxalifəti niyə bu gündədi? Axı, nə qədər olmasa da, bizim müxalifətimizdi! Sevincimin də səbəbi o oldu ki, nə yaxşı bunlar uduzacaqlarını əvvəlcədən hesablayıb, seçkilərə qatılmadılar. Yoxsa, Allah eləməmiş - Allah eləməmiş, qulaqlara qurğuşun, dairələrdən birində küyə gedən beş-altı min adam səs verib, onları deputat kürsüsünə qaldırardılar. O zaman nə az-nə çox, düz beş il bu səviyyənin sahibləri bizim üçün qanun icad etməli olardılar. Şükür, min şükür, canımız bəri başdan qurtarıb bunlardan. İnşaallah, bir az da ağıllanıb (əgər ağlalarının təsirindən qurtula bilib, ağıllansalar), ümumiyyətlə, siyasətə əlvida desələr, o zaman bir yox, min dəfə şükür eləmək mənim boynuma! Hay-hayı gedib, vay-vayı (vay-fayı yox a...) qalmış bu müxaliflərlə bağlı əlimizdən şükür eləməkdən savayı, nə gəlir ki?..

# AzerTelecom Davosda "Caspian Week 2020" konfransı çərçivəsində Memorandum imzalayıb

İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu çərçivəsində keçirilmiş "Caspian Week 2020" konfransında Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan AzerTelecom şirkəti və bu konfransın təşkilatçısı olan İsveçrənin Integral Petroleum S.A şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.

Qlobal liderlərin, şirkətlərin və ekspertlərin görüşü üçün bir platforma olan və Xəzər regionu ilə dünya arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, bu regionda innovasiyaların tətbiqinə hədəflənən "Caspian Week 2020" konfransı artıq 4-cü ildir ki, keçirilir. "Caspian Week 2020" konfransı çərçivəsində imzalanmış Memorandumla şirkətlər internet bağlantı xidmətlərinin yaxşılaşdırılması, iqtisadi inkişaf, qlobal bazarlara daha yaxşı çıxışın əldə olunması və Xəzər regionunda data tranziti üzrə strateji tərəfdaşlığın qurulması barədə qarşılıqlı niyyətlərini ifadə ediblər.

"İsveçrənin aparıcı şirkətlərindən olan In-




tegral Petroleum S.A ilə Memorandumun imzalanması qarşılıqlı əməkdaşlıq istiqamətində yeni perspektivlər açır. Hazırda AzerTelecom Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. Biz regionda bağlantı xidmətlərinin inkişafı üçün yeni imkanlar üzərində çalışırıq və inanırıq ki, əməkdaşlığımız son nəticədə hədəflərə çatmağa, böyük Xəzər regionunda dayanıqlı inkişafa töhfə verəcək" - deyə AzerTelecom şirkətinin baş direktoru Fuad Allahverdiyev bildirib.

"Biz Xəzər regionunun dünya bazarı ilə bağlantısını əhəmiyyətli şəkildə inkişaf etdirəcək logistika texnologiyalarını tətbiq edirik. Bura Əşyaların İnterneti (IoT- Internet of Things) həlləri, donanmanın optimallaşdırma vasitələri və digər elementlər daxildir. AzerTelecom şirkəti ilə əməkdaşlıq bu proqramın vacib bir hissəsidir" - deyə Integral Petroleum S.A şirkətinin direktoru Murat Seitnepesov bildirib.

Qeyd edək ki, AzerTelecom şirkətinin Xəzər regionunun telekommunikasiya sektorunda aktiv şəkildə fəaliyyət göstərdiyini, Integral Petroleum şirkətinin isə ticarət, logistika və rəqəmsal vasitələrin tətbiqi sahələrində fəaliyyətini nəzərə alaraq şirkətlər Xəzər regionunda sosial və iqtisadi inkişafı əhəmiyyətli dərəcədə sürətləndirmək üçün öz səylərini artıracaqlar.

AzerTelecom Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Hazırda AzerTelecom şirkəti Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" (ADH) proqramını icra edir.

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

29 yanvar

Son səhifə


## İbn Sinanın sağlam qidalanma barədə qızıl məsləhətləri...



***Müasir təbabətin banisi adlandırılan məşhur loğman Əbu Əli ibn Sina 270-dən çox əsərin müəllifidir. Onun bir sıra məsləhətləri əsrlər keçəndən sonra da öz aktuallığını saxlayır. Bu məsləhətlərdən bəzilərini təqdim edirik.***

**1.**Yay vaxtı turşməzə yeməklər, məsələn, tam yetişməmiş üzüm yeyin. Nar şirəsi, tam yetişməmiş üzüm şirəsi için, hind xurması yeyin.

**2.**Kökəldilmiş heyvanların ətini yeməkdən çəkinin, çünki bu, öd şirəsi ifrazını artırır. Payızda qarpız və üzüm yeyin, çünki belə yeməyin heç bir ziyanı yoxdur.

**3.**Müalicəvi prosedurların ən xeyirlisi hamamdır. Acqarına hamamda yuyunmaq insanı zəifledir.

**4.**Kükürdlü su ağrıları azaldır, sinirləri möhkəmləndir, çiban və yaraları sağaldır, dəridəki ləkələri ağardır, mədəni zəifledir, cinsi həvəsi azaldır.

**5.**Təzyiqiniz yüksək olduqda balqabaq şirəsi için. Ürəyi möhkəmlətmək üçün alma yeyin. İflic vurmuş insan sidr qozası yeməlidir. Sinə nahiyənizdə ağrılar varsa, badam yeyin, üstündən bal şərbəti için.

**6.**Payızda duzlu və quru yeməklərdən tam imtina edin. Belə yeməklər insanlarda müxtəlif xəstəliklərə fəsad verir. Duzlu pendir, duzlu balıq, ümumiyyətlə, bütün duzlu yeməklər zərərlidir.

**7.**Tərkibində dəmir olan su iştahanı artırır, dalaq xəstəliklərindən əziyyət çəkənlərə yaxşı təsir göstərir, cinsi həvəsi artırır, mədədə ağırlığı aradan götürür.

**8.**Dadlı və isti xörəklər öd ifrazını artırır. Buna səbəb onların çox isti olmasıdır. Belə yeməklərin faydalı cəhəti isə mədə-bağırsaq traktının işini fəallaşdırmasıdır.

**9.**Ürəkdöyünmə zamanı keşniş toxumu yeyin. Onurğanızda ağrı hiss edəndə cücə bulyonu için.

**10.**Müalicəsi olmayan xəstəlik yoxdur. Yalnız iradəsiz insanlar var. Faydasız bitki yoxdur, sadəcə onun faydalı cəhətləri hələ öyrənilməyib.



## Rövnəq Abdullayev növbəti dəfə AFFA-nın prezidenti seçilib

Rövnəq Abdullayev növbəti dəfə AFFA-nın prezidenti seçilib. AZƏRTAC xəbər verir ki, AFFA-nın yanvarın 28-də keçirilən konfransında Assosiasiyanın hazırkı rəhbəri R.Abdullayev səsvermə yolu ilə növbəti dəfə dörd il müddətinə qurumun prezidenti vəzifəsinə seçilib. Qeyd edək ki, R.Abdullayev 2008-ci ildən AFFA-nın prezidentidir. AFFA prezidentliyinə seçkilər dörd ildən bir keçirilir.

## Qahirə Universitetində niqab qadağan edildi



***Misir məhkəməsi Qahirə Universitetində qadın müəllim heyəti arasında niqabı qadağan edən qərar çıxarıb. AZƏRTAC "CGTN Africa" portalına istinadla xəbər verir ki, bu barədə misirli vəkil Əhməd Məhran məlumat verib.***

Qeyd olunub ki, Qahirənin İnzibati Hüquq Məhkəməsi Qahirə Universitetinin niqab geyinən 80 müəllim və əməkdaşının apelyasiya şikayətini təmin etməyib. Həmin əməkdaşlar universitet kampuslarında niqabın qadağan edilməsi barədə bundan əvvəlki məhkəmə instansiyasının qərarına etiraz etmişdilər. Vəkil jurnalistlərə müsahibəsində bildirib ki, məhkəmənin son qərarı qətidir və ondan şikayət verilə bilməz. O qeyd edib ki, Misirdə qadınların əksəriyyəti saçlarını örtmək üçün hicabdan istifadə edirlər, lakin niqab adətən ifrat mühafizəkar qadınlar tərəfindən ge-

## Əfqanıstanda 10 polis əməkdaşı öldürülüb



**Əfqanıstanın şimal-şərqində yerləşən Bağlan əyalətində "Taliban" silahlılarının hücumu nəticəsində hüquq-mühafizə orqanlarının azı 10 əməkdaşı həlak olub. AZƏRTAC xəbər verir ki, bu barədə yerli hakimiyyət orqanlarına istinadla Ariana News agentliyi məlumat yayıb. Agentliyin məlumatına görə, silahlılar avtomobil yollarının birindəki nəzarət-buraxılış məntəqəsinə hücum ediblər.**

Öldürülən terrorçular barədə informasiya verilmir. Əfqanıstanda hökumət qüvvələri və kənd rayonlarında xeyli üstünlüyə yiyələnərək böyük şəhərlər istiqamətində hücumları genişləndirən "Taliban" hərəkatının silahlıları arasında qarşıdurmalar uzun müddətdir davam edir. Həmçinin ölkədə İŞİD terror qruplaşmasının da fəallığı artır. Milli müdafiə və təhlükəsizlik qüvvələri beynəlxalq koalisiyanın hərbi dəstəyi ilə silahlı qruplaşmalara qarşı bütün ölkə boyu birgə əməliyyatlar keçirirlər.



## Obamanın xanımı "Qremmi" mükafatı qazanıb

ABŞ-ın keçmiş birinci xanımı Mişel Obama "Ən yaxşı danışıq janrı" nominasiyasında "Var olmaq" adlı memuar kitabına görə "Qremmi" mükafatı qazanıb. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, 62-ci Qremmi mükafatının təqdimetmə mərasimi Los-Anceles şəhərində keçirilib. Səsli kitab formatında satışa çıxarılan audio kitab xeyli məşhurluq qazanıb, dünyanın 31 dilinə tərcümə edilib.




## Kristian Eriksen rəsmən "İnter"də

"Tottenhem"in futbolçusu Kristian Eriksenin "İnter"ə keçidi rəsmiləşib. Klubun saytında yer alan xəbərdə deyilir ki, 27 yaşlı yarımmüdafiəçi ilə 2024-cü ilin iyununa qədər müqavilə imzalanıb. Qeyd edək ki, İtaliya mətbuatı bu transfer üçün A seriyası təmsilçisinin 20 milyon avro ödədiyini yazıb. Danimarkalı futbolçunun yeni klubunda ilinə 10 milyon avro qazanacağı bildirilib. Xatırladaq ki, K.Eriksenin "Tottenhem"lə müqaviləsi bu mövsümün sonu başa çatırdı.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600